


“Tribuna” portalı: “Azərbaycan dünyanın bir çox dövlətlərinin hesablaşacağı nüfuzlu ölkəyə çevrilir”

3

# “Azərbaycanla Koreya arasında siyasi əlaqələr yüksək səviyyədədir”



2

Prezident İlham Əliyev Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədrini qəbul edib

Səs
№ 213 (6413) 23 noyabr 2021-ci il. Qiymәti 40 qәpik

# Sosial şəbəkə terroruna qarşı necə mübarizə aparılmalıdır?



Sosial mediadan artan istifadə cəmiyyətdəki hər bir fərdə öz fikirlərini bölüşmək imkanı verir. Baxmayaraq ki, biz bunu müsbət və əlverişli vəziyyət kimi görürük. Manipulyasiya xarakterli, təxribat xarakterli, yalan və çaşdırıcı məlumatların yayılması baxımından vəziyyət o qədər də ürəkaçan deyil. Sosial şəbəkələrdə...

8



## Yeni Azərbaycan Partiyası

- müstəqil, müasir və bütöv Azərbaycan reallığı

4

Tarixi təcrübə hər bir xalqın siyasi taleyində dönüş nöqtələri hesab olunan müstəsna hadisə...



## Oyunbazlığı Ermənistana baha başa gələr

14



## “Mançester Yunayted” bu baş məşqçiyə 9 milyon avro təzminat ödəyəcək

İngiltərənin ”Mançester Yunayted” futbol klubunun istefaya göndərdiyi baş məşqçi Ole-Qunnar Sulşerin alacağı təzminatın məbləği açıqlanıb. İngiltərnin nüfuzlu ”The Times” nəşrinin yazdığına görə, ”qırmızı şeytanlar” norveçli mütəxəssisin...

16



## Xankəndidə ermənilər şoka düşüblər: Şəhərdə türklər çəkilişlər aparır

## Ermənilərin törətdiyi ekoloji terror: 54 min hektar meşə sahəsi məhv edilib!



7



## Ermənilər şikayət etdi, “Facebook” Korotçenkonun səhifəsini yenidən bağladı

9

“Facebook” sosial şəbəkəsi Rusiyanın nüfuzlu ”Natsionalnaya oborona” jurnalının baş redaktoru, məşhur hərbi ekspert İqor...



## Stress niyə ürəyi zədələyir?- Alman professor səbəbini açıqladı

16

Stress əcdadlarımızın ən yaxşı dostu idi, onların həyatını qurtarırdı. Lakin müasir insanlar haqqında bunu demək...

# "Azərbaycanla Koreya arasında siyasi əlaqələr yüksək səviyyədədir"

## Prezident İlham Əliyev Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Parkı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında mütəmadi təmasların olmasından məmnunluğunu ifadə edərək, bunu hər iki tərəfdə əməkdaşlığın dərinləşməsi üçün qarşılıqlı marağın göstəricisi kimi qiymətləndirdi. Dövlətimizin başçısı əminliyini bildirdi ki, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olması bütün digər sahələrdə də əməkdaşlıq üçün müsbət təsirini göstərəcək.

İqtisadi əməkdaşlığa toxunan Prezident İlham Əliyev Koreya şirkətlərinin ölkəmizdə müxtəlif sahələrdə uğurla fəaliyyət göstərdiklərini bildirərək, böyük sənaye infrastrukturu layihələrinin icrasında bu şirkətlərin fəaliyyətini qeyd etdi və Bakının müasir memarlıq obrazında Koreya şirkətlərinin də payı olduğunu dedi.

Dövlətimizin başçısı yaxın vaxtlarda Azərbaycanın azad edilmiş torpaqlarında görüləcək işlərlə bağlı Koreya Respublikasında təqdimatın keçiriləcəyini vurğulayaraq bildirdi ki, bundan məqsəd Koreya şirkətlərinin azad olunmuş torpaqlarda işlərə cəlb edilməsindən ibarətdir. Azərbaycan Prezidenti işğal dövründə Ermənistanın müntəzəm olaraq şəhər və kəndlərimizi dağıtdığını qeyd etdi, Zəfərdən sonra həmin ərazilərdə genişmiqyaslı quruculuq işlərinin başlandığını dedi, Azərbaycana dost ölkələrin şirkətlərinin bu işlərə dəvət edildiyini bildirdi. Vurğuladı ki, Koreyada bu təqdimatın keçirilməsi də ölkələrimiz arasında dostluq münasibətlərini bir daha təsdiq edir.

Prezident İlham Əliyev Çong Soo Parkın səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.



Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Park xoş sözlərə görə minnətdarlığını bildirərək rəhbərlik etdiyi komitənin fəaliyyəti barədə məlumat verdi. Bildirdi ki, Koreyanın yeni şimal siyasəti 14 ölkəni əhatə edir və bu ölkələr sırasında Azərbaycan ən qərbdə yerləşən ölkədir. Koreya ilə Azərbaycan arasında bir çox oxşar cəhətlərin, o cümlədən geosiyasi mövqe cəhətdən oxşarlıqların olduğunu vurğulayan Çong Soo Park Koreyanın qitə və okeanları birləşdirən strateji yerdə, öz növbəsində Azərbaycanın isə müxtəlif beynəlxalq istiqamətləri birləşdirən nəqliyyat mərkəzində yerləşdiyini və Xəzər dənizi ətrafında nəqliyyat mərkəzi olduğunu məmnunluqla bildirdi.



Görüşdə Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərində rolu qeyd olundu, ikitərəfli və çoxtərəfli formatlarda, həmçinin iqtisadi zonalar arasında əməkdaşlıq imkanlarına toxunuldu. Müxtəlif sahələrdə, o cümlədən bərpa olunan enerji, nəqliyyat, logistika və turizm sahələrində əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkli çəkdirildi.



# "Ölkələrimiz arasında investisiya əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanlar var"

## Prezident İlham Əliyev Portuqaliyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Portuqaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jaime Van Zellerin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Jaime Van Zeller etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı olduğu və beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyi, ikitərəfli münasibətlər müstəvisində iqtisadi-ticarət, investisiya əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı münasibətlərinə toxunuldu, Azərbaycanın quruma üzv ölkələr və digər Avropa institutları ilə uğurlu əməkdaşlığının olduğu bildirildi. Görüşdə səfir Jaime Van Zellerin fəaliyyəti dövründə münasibətlərimizin çox müsbət şəkildə inkişafının davam edəcəyinə əminlik ifadə olundu.

# Nigeriya Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır

## Prezident İlham Əliyev Nigeriyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Nigeriya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yakubu Santuraki Suleymanın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Yakubu Santuraki Suleyman etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.



Prezident İlham Əliyev ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq etdiyini dedi, işğal dövründə Nigeriyanın hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bildirdi. Dövlətimizin başçısı münaqişənin artıq hərbi-siyasi yollarla həllini tapdığını vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ilə qədər uzadılması məsələsinə Nigeriyanın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi, bunu etimad və dostluq əlaməti kimi qiymətləndirdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi üzv dövlətlərin hüquqlarını müdafiə etdiyini, beynəlxalq hüququ və ədaləti dəstəklədiyini vurğuladı. Azərbaycan Prezidenti İlham Əliyev Yakubu Santuraki Suleymanın səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.

Səfir Yakubu Santuraki Suleyman Nigeriya Prezidenti Muhammadu Buharinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Nigeriya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səfir Nigeriya və Azərbaycanın həmişə ədalətin tərəfdarı olduqlarını dedi, ölkəsinin Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə, xüsusilə Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildirdi.

Görüşdə ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin olduğu vurğulandı, ticari münasibətləri genişləndirmək üçün imkanların mövcudluğu qeyd edildi. Azərbaycanın Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərindən olan tələbələrin ölkəmizdə təhsil almaları üçün təqaüd ayırdığını və Nigeriyadan olan tələbələrin bu təqaüd proqramı çərçivəsində Azərbaycanın ali məktəblərində təhsil aldıqları vurğulandı.



# "Finlandiya Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini yüksək qiymətləndirir"

## Prezident İlham Əliyev Finlandiyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Finlandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Kirsti Narinenin etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir Kirsti Narine Finlandiya Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı və etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti Finlandiya Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Finlandiya dövlətinin başçısına çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Finlandiya Prezidenti ilə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində görüşlərini xatırlatdı. Dövlətimizin başçısı regionda vəziyyətin dəyişdiyini və regional əməkdaşlıq üçün geniş imkanların yarandığını vurğuladı.

Səfir Kirsti Narine ölkələrimiz arasında çoxlu oxşarlıqların olduğunu dedi, əlaqələrimizi genişləndirmək üçün imkanların mövcudluğunu qeyd etdi. Səfir Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın, regionda sülhün və sabitliyin gücləndirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Uqandanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Uqanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Muhammad Tezikuba Kisambiranın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Muhammad Tezikuba Kisambira etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin olduğu bildirildi. Həmçinin Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Bu baxımdan Prezident İlham Əliyev Uqanda Respublikasının Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ilə qədər uzadılması ilə bağlı verilən qərara göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu hərəkatın sədri kimi Azərbaycan üzv dövlətlər arasında birliyin gücləndirilməsi, xüsusilə COVID-19 ilə mübarizədə praktiki dəstəyi təmin etmək üçün fəal iş aparıb. Azərbaycan Prezidenti ölkəmizin bundan sonra da Qoşulmama Hərəkatına üzv olan ölkələr arasında əlaqələrin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğuladı. Prezident İlham Əliyev bildirib ki, artıq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə (ASAN xidmət) Uqandanın müvafiq qurumu arasında anlaşma memorandumu imzalanıb. Qeyd olunub ki, "ASAN xidmət"in Uqandada yaradılması prosesinə dəstək istiqamətində ölkəmizdəki müvafiq qurumlar tərəfindən iş aparılır.

Söhbət zamanı Azərbaycanın UNESCO-nun xətti ilə Keniya, Tanzaniya və Uqandada gənc qızların təhsilini nəzərdə tutan etimad fondu layihəsinə dəstəyi yüksək qiymətləndirildi.

Uqanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Muhammad Tezikuba Kisambira Uqanda Prezidenti Yoveri Museveninin salamlarını dövlətimizin başçısına çatdırdı.



Prezident İlham Əliyev Uqanda Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Uqanda dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Muhammad Tezikuba Kisambira bildirdi ki, ölkəmizə səfir təyin olunarkən Uqanda Prezidenti ona beynəlxalq aləmdə ölkələrimiz arasında siyasi dəstəyi gücləndirmək barədə tapşırıq verib. Səfir Prezident İlham Əliyev üçün uyğun vaxtda Uqandaya səfər etməklə bağlı ölkəsinin rəhbərliyinin dəvətini dövlətimizin başçısına çatdırdı. O, həmçinin vurğuladı ki, Uqanda rəhbərliyi Azərbaycanın bu ölkəyə investisiya yatırmasında maraqlıdır. Diplomat dedi ki, Uqanda Afrika qitəsində turizm sahəsində ölkəmizin təmsil olunması işinə töhfə verməyə hazırdır.

# "Tribuna" portalı: "Azərbaycan dünyanın bir çox dövlətlərinin hesablaşacağı nüfuzlu ölkəyə çevrilir"

**Moldovanın tanınmış "Tribuna" informasiya-analitik portalında siyasi təhlilçi, tarix elmləri doktoru Ruslan Şevçenkonun "Azərbaycan və Ermənistan: 44 günlük müharibədən sonra bir il" sərlövhəli məqaləsi dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanda və Ermənistanda münaqişədən sonrakı dövr, o cümlədən işğaldan azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən aparılan genişmiqyaslı tikinti-bərpa işləri və yeni reallıqlar nəzərə alınmaqla regionun inkişaf perspektivlərindən bəhs edilir.

"Qələbə nəticəsində Azərbaycan xalqının əhval-ruhiyyəsi və Prezident İlham Əliyevin şəxsi nüfuzu hədsiz dərəcədə yüksəlib. Bu, mübaliğəsiz olaraq Azərbaycan tarixində ən böyük siyasi hadisədir. Azərbaycan Cənubi Qafqazda dünyanın bir çox dövlətlərinin də hesablaşacağı getdikcə daha əhəmiyyətli və nüfuzlu ölkəyə çevrilir. İndi Azərbaycan qarşısına artıq yeni məqsədlər qoyur: Naxçıvan Muxtar Respublikası ilə quru nəqliyyat əlaqələrinin bərpasına nail olmaq. Bunun üçün Azərbaycan Ermənistanı 2020-ci il 10 noyabr tarixli müqavilənin müddəalarına uyğun olaraq Zəngəzur dəhlizinin açılması ilə bağlı razılığa gəlməyi, habelə Azərbaycanla sərhədlərin delimitasiyası haqqında saziş imzalamağı təklif edir", - deyə Ruslan Şevçenko vurğulayıb.

Müəllif məqaləsində qeyd edir ki, gələcəkdə Azərbaycan Ermənistan üzərində hərbi, siyasi və iqtisadi üstünlüyünü artıracaq. Bu isə o deməkdir ki, Azərbaycan zaman keçdikcə Zəngəzur dəhlizi planlarını həyata keçirməklə yanaşı, nəhayət, Ermənistanla sülh müqaviləsi imzalamaq və sərhədləri delimitasiya etməklə Qarabağ məsələsini "bağlaya" biləcək.


10:36 35%
TRIBUNA
ВАЖНО 22 Ноября 2021 09:56
АЗЕРБАЙДЖАН VS АРМЕНИЯ: ГОД ПОСЛЕ 44-ДНЕВНОЙ ВОЙНЫ

Прошедший год стал особым для Азербайджана. Он прошел под знаком великой победы, которую весь азербайджанский народ ждал долгих 26 лет. Одержанная в короткой, 44-дневной войне с Арменией, она позволила Азербайджану, в соответствии с соглашением от 9 ноября 2020 г. вернуть под свой контроль почти весь Карабах с Шушой, в том числе Агдамский, Кельбаджарский и Лачинский районы (последние были возвращены в состав Азербайджана уже после мирного соглашения, соответственно 20, 25 ноября и 1 декабря

# Yeni Azərbaycan Partiyası

## - müstəqil, müasir və bütöv Azərbaycan reallığı




**Tarixi təcrübə hər bir xalqın siyasi taleyində dönüş nöqtələri hesab olunan müstəsna hadisə və proseslərin olduğunu təsdiqləyir. Zəngin milli-mənəvi dəyərlərə və dövlətçilik ənənələrinə malik olan, bir əsrdə iki dəfə müstəqillik qazanmış, bəşər sivilizasiyasına mühüm töhfələr vermiş Azərbaycan xalqı da bu baxımdan istisna deyil.**

Adını dünya tarixinə güclü, nüfuzlu və qalib ölkə kimi yazdırmış müasir, müstəqil Azərbaycan bugünkü inkişaf, intibah, yüksəliş və tərəqqi mərhələsinə asanlıqla çatmayıb. 1991-ci ildə bərpa edilmiş dövlət müstəqilliyinin ilk illərinin ictimai-siyasi mənzərəsinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli məhz lider amili, onun fenomenal fəaliyyəti, qətiyyətli və uğurlu siyasəti, xalq-lider birliyi sayəsində mümkün olmuşdur. Bu, heç şübhəsiz, öz tarixi köklərinə bağlı olan, istiqlal - müstəqillik idealını milli və siyasi dəyər kimi rəhbər tutan, bu yolda güclü əzm, iradə göstərən və sarsılmaz mübarizə nümunəsi yaradan bir xalqın üstünlüyü və xoşbəxtliyidir. Çünki zamandan, məkandan, dövrdən və şəraitdən asılı olmayaraq, taleyüklü anlarda siyasi məsuliyyəti öz üzərinə götürən lideri olmayan xalqların hansı acı ssenarilərin qurbanına çevrildiklərinin, necə böyük faciə və fəlakətlərlə üzləşdiklərinin şahidi olmuşuq.



*Tahir BUDAQOV*
*YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri*

1990-cı ilin əvvəlində eyni situasiya və problemlə qarşılaşan mübariz Azərbaycan xalqı, qeyd etdiyimiz kimi, lider fenomeni, xalq ilə liderin unikal və mükəmməl vəhdəti sayəsində tənəzzüldən qurtularaq tərəqqi yoluna çıxmağı, böyük Zəfərə doğru irəliləməyi və əsas strateji hədəflərinə çatmağı, nəhayət, tarixinin ən böyük Qələbəsinə müvəffəq olmağı bacarmışdır. Ümumiyyətlə, Azərbaycan xalqı istər XX əsrin sonlarında, istərsə də XXI əsrin əvvəllərində öz müdrik liderləri Heydər Əliyevin və İlham Əliyevin milli vətənpərvərlik ruhu, qətiyyəti və həm milli maraqlara, həm də ümumbəşəri dəyərlərə əsaslanan siyasəti sayəsində dövlətimizin yüksəlişinin, üçrəngli bayrağımızın ən yüksək zirvələrdə əzmlə və fəxarətlə dalğalanmasının qürurunu yaşamışdır.

### Ümumxalq partiyasının yaradılması - müstəqil dövlətçiliyimizin dönüş nöqtəsi

Həmin dövrün reallıqları fonunda müstəsna tarixi-siyasi əhəmiyyətə malik və haqlı olaraq müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən hesab edilən hadisələrdən biri də Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasıdır. Siyasətçilərin, siyasi analitik - ekspertlərin, ziyalıların, ümumiyyətlə, cəmiyyətin müxtəlif təbəqələrindən olan insanların dilindən tez-tez belə bir ifadə eşidirik: "YAP ictimai tələb əsasında və siyasi zərurətdən yaranmış partiyadır". Əlbəttə, bu, ictimai-siyasi və tarixi reallığı əks etdirən, tamamilə doğru və dəqiq yanaşmadır. İnkaredilməz həqiqətdir ki, müstəqilliyin ilk illərində, o cümlədən Yeni Azərbaycan Partiyasının yaradılması ərəfəsində Azərbaycanda mövcud hakimiyyətin milli maraqlara zidd, yarıtmaz, uğursuz siyasəti və xəyanətkar mövqeyi nəticəsində ölkəmizdə ictimai-siyasi böhran, iqtisadi tənəzzül hökm sürürdü, respublikamız regional və beynəlxalq səviyyədə, demək olar ki, geosiyasi təcrid vəziyyətində idi. Ölkə daxilində siyasi ziddiyyətlərin dərinləşməsi, vətəndaş qarşıdurmasına yol açan gərginliyin artması, Azərbaycana beynəlxalq təzyiqlərin güclənməsi, Ermənistanın ölkəmizə təcavüzünün genişlənməsi - torpaqlarımızın işğal edilməsi, digər neqativ hadisə və proseslər Azərbaycanın formal xarakter daşıyan müstəqilliyinin itirilməsi təhlükəsini aktuallaşdırırdı. Belə bir şəraitdə yalnız qətiyyətli, təcrübəli siyasi lider uğurlu strateji kurs həyata keçirərək və milli həmrəyliyi təmin edərək Azərbaycanın xilasına nail ola bilərdi. İnam, etibar və etimad ünvanı isə bəlli idi. Azərbaycan xalqı ümidini məhz müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. 1992-ci il oktyabrın 16-da bir qrup Azərbaycan ziyalısının Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi bunun bariz nümunəsi - əyani ifadəsi idi. 91 nəfər ziyalının imzaladığı müraciətdə "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir",- deyə vurğulanmışdı. Ümummilli Lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur.

Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər", - deyə Ulu Öndər diqqətə çatdırmışdı. Bu, Ümummilli Lider Heydər Əliyevin növbəti dəfə xalqın və dövlətin gələcəyi, dövlətçiliyimizin xilası naminə siyasi məsuliyyəti öz üzərinə götürməsi, yüksək vətənpərvərlik və milli təəssübkeşlik nümunəsi ortaya qoyması idi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransının keçirilməsi, Ulu Öndər Heydər Əliyevin partiyanın Sədri seçilməsi xalqımızın gələcək taleyini, ölkəmizin perspektivini müəyyənləşdirən çox mühüm, əlamətdar hadisə oldu. Azərbaycan Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyev partiyanın keçdiyi tarixi yoldan danışarkən bu məqamlara toxunaraq deyib: "Partiyanın çox böyük tarixi var, partiya Ulu Öndər Heydər Əliyev tərəfindən çox çətin, ağır şəraitdə yaradılmışdır. Ondan sonra partiyanın bütün fəaliyyəti Azərbaycan xalqına xidmətdən ibarət olmuşdur. Bizim partiyamız müxalifətdə yaranmışdır. Yəni biz ilk fəaliyyətimizə müxalifət partiyası olaraq başlamışıq. Ancaq buna baxmayaraq, Azərbaycanın qarşısında duran bütün çətin vəzifələrin həlli işində bizim partiyamız çox fəal iştirak edib. Bu, bir daha onu göstərir ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyini möhkəmləndirən və Azərbaycan dövlətçiliyini ən uca tutan partiyadır".

### Xalq-Lider vəhdəti - yeni Azərbaycan quruculuğu

Güclü lider ətrafında yaradılan Yeni Azərbaycan Partiyası qısa müddət ərzində xalqı öz ətrafında sıx birləşdirdi və siyasi səhnədə yüksəlişə keçərək layiqli yer tutdu. Bunu mümkün edən bir çox strateji faktor var idi. Ən əsası o idi ki, Ümummilli Lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının fəaliyyət konsepsiyasını və prioritetlərini məhz dövrün çağırışlarına, reallıqlarına uyğun müəyyənləşdirmişdi, YAP, sözün əsl mənasında, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qətiyyətli müdafiəçisinə çevrilmişdi. Digər tərəfdən, Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inamı, etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl uğurlar qazanmasını təmin edən əsas amil oldu. Partiyamız qısa müddət ərzində milli seçim - Azərbaycan xalqının iradəsi əsasında hakimiyyətə gələrək ölkəmizin həyatında keyfiyyətcə və mahiyyətcə tamamilə yeni mərhələnin başlanmasını, yeni Azərbaycan quruculuğunun həyata keçirilməsini təmin etdi.

Hələ yarandığı vaxt öz məqsədyönlü, nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydalarını və normalarını müəyyənləşdirən Yeni Azərbaycan Partiyası yeni siyasi mədəniyyət nümunəsi ortaya qoydu. YAP nümayiş etdirdi ki, müxalifətçilik dövlətin maraqlarına zidd mövqe tutmaq üçün deyil, iqtidar partiyası kimi fəaliyyət göstərmək, hər şeydən əvvəl, məhz xalqa xidmət etmək, onun mənafeyini qorumaq prinsiplərinə əsaslanmalıdır. Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyəti, eyni zamanda dövlətin institusional sütunlarından olan siyasi sistemin təşəkkül tapması baxımından da əlamətdar idi. Çünki o zamana qədər Azərbaycanda sivil siyasi münasibətlərdən - siyasi qüvvələr arasında inkişafa xidmət edən sağlam rəqabətdən, milli məsələlərə rasional və konstruktiv yanaşmadan söhbət belə gedə bilməzdi. Yeni Azərbaycan Partiyası məhz bu ictimai-siyasi ənənələri yaratdı, Azərbaycanın gələcək demokratik inkişafının siyasi özülünü qoydu. Azərbaycan Respublikasının Prezidenti, YAP-ın Sədri İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizdə, əslində, siyasi sistemin yaradılması demək idi: "Çünki o vaxta qədər bizdə siyasi sistem mövcud deyildi. Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi mübarizə qaydalarının təbliği, ümumiyyətlə, siyasətin sivil yollarla aparılması ideyaları da cəmiyyətdə böyük əks-səda yaratdı və cəmiyyət tərəfindən dərhal dəstəkləndi. Biz bu ideyalara bu gün də sadiqik.

*Ardı Səh. 5*

# Yeni Azərbaycan Partiyası

## - müstəqil, müasir və bütöv Azərbaycan reallığı

Əvvəli Səh. 4

Bütün siyasi mübarizələri sivil qaydalarla aparırıq və bütün siyasi məsələlərdə daim qələbə qazanırıq. Yeni Azərbaycan Partiyası və onun nümayəndələri bütün prezident, parlament və bələdiyyə seçkilərində böyük üstünlüklə qələbə qazanmışlar. Bu, partiyamızın ümummilli partiya olduğunu bir daha sübut edir".

### YAP-ın zəngin və şərəfli tarixi - müstəqil Azərbaycanın inkişaf salnaməsi

Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Çünki müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan YAP ötən 29 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmiş, siyasi ləyaqət etalonu yaratmışdır. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün sıralarında 760 mindən çox vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi də bu reallığın təsdiqidir. Azərbaycan Prezidenti, partiyamızın Sədri İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib".

Öz sıralarında Azərbaycan cəmiyyətinin demək olar ki, bütün təbəqələrindən olan, sağlam düşüncəli və möhkəm əqidəli insanları birləşdirən Yeni Azərbaycan Partiyasının fəaliyyətinin səmərəliliyini təmin edən mühüm strateji amillərdən biri partiyanın mütəmadi olaraq struktur və təşkilati nöqteyi-nəzərdən yenilənməsi, islahatlar çərçivəsində təkmilləşməsidir. Xüsusilə də partiyanın qurultaylarında qəbul edilən qərarlar YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərini təmin edən çox mühüm amildir. Xüsusi vurğulamaq gərəkdir ki, cənab İlham Əliyevin 1999-cü ildə Yeni Azərbaycan Partiyası Sədrinin müavini, 2001-ci ildə Sədrin birinci müavini, 2005-ci ildə isə Sədr seçilməsindən sonra partiyanın fəaliyyətində yeni mərhələ başlanmışdır. Yeri gəlmişkən, Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər", - deyə bildirmişdi. Zaman Ümummilli Liderin inamının, xalqın böyük etimadının özünü tam doğrultmasına şahidlik etdi. Cənab İlham Əliyev xalqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmiz və partiyamız yeni tarixi nailiyyətlərə imza atdı və bu proses hazırda uğurla - yüksələn xətt üzrə davam edir.

Bunlarla yanaşı, Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V qurultayında YAP Sədrinin müavini, 2021-ci il mart ayının 5-də baş tutmuş VII qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, YAP-ın və dövlətimizin daha da güclənməsinə xidmət edən mötəbər hadisədir. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın milli inkişafa xidmət edən çoxşaxəli fəaliyyətinin mühüm tərəflərindən birini Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər təşkil edir. Bu isə dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Reallıqlar isə onu deməyə əsas verir ki, Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini kimi fəaliyyəti bundan sonra da qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan YAP-ın yeni nailiyyətlər əldə edərək öz nüfuzunu daha da artırması, Azərbaycanın sürətli və hərtərəfli inkişafına davamlı töhfə verməsi baxımından olduqca əlamətdar olacaq.

### Gənclərin vahid seçimi - üçüncü minilliyin və gələcəyin partiyası

Yeni Azərbaycan Partiyası müasir çağırışlara cavab verən, öz fəaliyyətini yeni tendensiyalar əsasında davam etdirən dinamik ictimai-siyasi qüvvədir. Partiyamızın siyasi dinamizmini təmin edən mühüm amillərdən biri uğurlu gənclər siyasətinin həyata keçirilməsi, Azərbaycan gəncliyinin Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin siyasətinə güclü ictimai dəstək nümayiş etdirməsidir. Bunun nəticəsi özünü gənclərin Yeni Azərbaycan Partiyasına daimi və sürətli axınında göstərir.

Bu gün YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti gənclərdən ibarətdir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib. Partiyamız tarixi ənənələrə, müasir çağırışlara və mütərəqqi dəyərlərə əsaslanan fəaliyyəti ilə milli həmrəyliyin ideoloji düsturu olan azərbaycançılıq məfkurəsinin geniş təbliğinə və mənimsənilməsinə vacib töhfələr verir. Dünya azərbaycanlılarının, o cümlədən mütərəqqi qüvvə olan gənclərin milli ideologiyanı əxz edərək yüksək vətənpərvərlik nümayiş etdirməsində YAP-ın bu istiqamətdə məqsədyönlü fəaliyyətinin müstəsna rolu var. Bu, həmçinin Azərbaycanın sabitlik adası və təhlükəsizlik məkanı kimi sürətli və dayanıqlı inkişafına etibarlı zəmin yaradır. Prezident, partiyamızın Sədri İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir".

Əlbəttə, yenilikçi və fəal qüvvə olan, daim irəliyə baxan və perspektivi düşünən təbəqənin - sağlam düşüncəli gənclərin vahid seçiminin Yeni Azərbaycan Partiyası olması təsadüfi deyil. Çünki vətəndaşların ali mənafeyini qoruyan, gənclərin xalqa və dövlətə faydalı ideyalarını dəstəkləyən YAP Azərbaycanın dünəni, bugünü olduğu kimi, gələcəyi - aydın sabahı və parlaq perspektivi olduğunu da öz əməli fəaliyyəti ilə sübuta yetirib. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası Azərbaycanın bugününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır.

### Çoxşaxəli beynəlxalq əməkdaşlıq - Azərbaycanın milli maraqlarının qətiyyətli müdafiəsi

Yeni Azərbaycan Partiyasının çoxşaxəli fəaliyyəti ölkədaxili ictimai-siyasi münasibətlərdə fəal iştirakla məhdudlaşmır, eyni zamanda beynəlxalq məzmun, xarakter və əhəmiyyət daşıyır. Daha dəqiq desək, Azərbaycanın davamlı, dayanıqlı və dinamik inkişafına ardıcıl töhfələr verməyi başlıca strateji vəzifə və fəaliyyət istiqaməti kimi müəyyənləşdirən YAP, həmçinin ölkənin inzibati-coğrafi sərhədlərindən - respublikamızın hüdudlarından kənarda səmərəli əlaqələr formalaşdırmaqla, davam və inkişaf etdirməklə öz missiyasını yerinə yetirir. Şübhəsiz ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyalarından olan YAP-ın beynəlxalq münasibətlərinin yüksələn xətt üzrə inkişaf etməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın coğrafiyasının genişlənməsi, keyfiyyətcə zənginləşməsi siyasi önəm daşımaqla ölkəmizin xarici əlaqələrinin daha da möhkəmlənməsinə əhəmiyyətli və vacib töhfədir. Xüsusi vurğulamaq lazımdır ki, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın aparıcı siyasi partiyaları və qurumları ilə münasibətlər mühüm yer tutur. Bu münasibətlər çərçivəsində partiyalar arasında intensiv təmaslar davam etdirilir, səmərəli, faydalı müzakirələr, fikir və təcrübə mübadilələri aparılır. Bu kontekstdə dost, qardaş və strateji tərəfdaş Türkiyə Respublikasının hakim siyasi partiyası olan Ədalət və İnkişaf Partiyası (AK Parti) ilə münasibətlərin davamlı inkişafı xüsusi önəm daşıyır. Ümumiyyətlə, Azərbaycan-Türkiyə mənəvi-siyasi birliyinin və 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni geostrateji reallıqların fonunda YAP-AK Parti əlaqələri də keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. İki hakim siyasi partiya dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələri daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə müvafiq siyasi, hüquqi addımlar atılır.

Bunlarla yanaşı, Yeni Azərbaycan Partiyasının beynəlxalq siyasi partiya təşkilatlarında da müvəffəqiyyətlə təmsil olunması ölkəmizin milli maraqlarının regional və qlobal səviyyədə qorunması baxımından böyük önəm daşıyır. YAP 51 ölkənin siyasi partiyalarının təmsil olunduğu "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı" (ICAPP) Daimi Komitəsinin üzvü kimi bu nüfuzlu beynəlxalq platformanın imkanlarından istifadə etməklə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli fəaliyyət göstərir. Eyni zamanda Yeni Azərbaycan Partiyasının Almaniyanın, Fransanın, İtaliyanın, İspaniyanın və digər ölkələrin hakimiyyətdə olan partiyalarını özündə birləşdirən Avropa Xalqları Partiyası (EPP) ilə münasibətləri inkişaf və irəliləyişlə müşayiət olunur. Bu isə partiyamıza Avroatlantik məkanda Azərbaycan reallıqlarının təbliği, dövlətin siyasi maraqlarının müdafiəsi üçün əlavə imkanlar verir.

Bütövlükdə, partiyamızın səmərəli xarici əlaqələri və çoxşaxəli beynəlxalq əməkdaşlığı Azərbaycanın dövlətçilik maraqlarının qlobal arenada qorunması üçün mühüm vasitədir.

### Yeni çağırışlar və hədəflər - daha qüdrətli Azərbaycan naminə

Azərbaycan milli tərəqqinin yeni mərhələsinə qədəm qoyub. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Yeni dövrün reallıqlarına uyğun olaraq siyasi inkişafa xidmət edən islahatların aparılması, sosial-iqtisadi yüksəlişin davamlılığının təmin olunması, milli həmrəyliyin, Azərbaycanın beynəlxalq arenada və qlobal informasiya müstəvisində mövqeyinin daha da gücləndirilməsi, Böyük qayıdışın yüksək səviyyədə həyata keçirilməsi, tarixi Qələbənin nəticələrinin möhkəmləndirilməsi və digər milli məqsədlər strateji prioritetlər kimi müəyyənləşdirilib. Təbii ki, hakim və alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının da bu istiqamətdə üzərinə mühüm vəzifə və məsuliyyət düşür.

Xüsusi vurğulamaq gərəkdir ki, tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın cari il martın 5-də baş tutmuş VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş, eləcə də yuxarıda bəhs olunan strateji prioritetlərdən irəli gələn vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə yeni imkanlar, dayanıqlı, etibarlı və möhkəm zəmin yaradacaqdır.

Əminliklə söyləmək olar ki, Yeni Azərbaycan Partiyası yeni reallıqlar, həmçinin dövlətin qətiyyətli siyasəti, xalqın sarsılmaz həmrəyliyi fonunda öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Azərbaycanın növbəti tarixi nailiyyətlər qazanmasına və strateji zirvələr fəth etməsinə layiqli töhfəsini verəcəkdir!

## Həyati əhəmiyyətli dərmanların bahalaşmasının qarşısı alınır

Rusiya Nazirlər Kabinetinin saytında verilən məlumata görə, hökumət həyati əhəmiyyət kəsb edən və zəruri olan dərman vasitələrinin qiymətlərinə nəzarət qaydasını təsdiqləyib. Baş nazir Mixail Mişustin müavinləri ilə görüşdə belə dərmanların qiymətini əsassız yerə şişirtməməyə çağırıb.

"Vətəndaşlar üçün zəruri dərmanların qiymətlərinin münasib olması üçün bazarda tarazlığın qorunması vacibdir". Hökumətin mətbuat xidməti izah etdi ki, Federal Antiinhisar Xidməti (FAS) regional səhiyyə orqanlarının mükafatları hesabladığı sənədləri yoxlayacaq. Göstərilir ki, yoxlamalar həm planlı, həm də plansız ola bilər. Sonuncunu həyata keçirmək üçün bir şərt tələb olunur. Bunlar vətəndaşların və təşkilatların ərizələri, prezidentin, hökumətin, Rusiya Federasiyasının Baş prokurorunun və ya bir bölgənin prokurorunun göstərişləri ola bilər. "Nəzarət tədbirlərinin nəticələri və pozuntuların aradan qaldırılması üçün görülmüş tədbirlər haqqında məlumat yoxlamaların vahid reyestrində əks etdiriləcək", - məlumatda deyilir.

***Elçin***



# "Yaşıl Marafon" kampaniyası keçirilib

**Noyabrın 20-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü münasibətilə IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Yaşıl Marafon" kampaniyası keçirilib. SİA-nın verdiyi məlumata görə, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Milli Məclisin üzvləri və partiyanın fəalları marafonda iştirak ediblər.**

Qeyd edək ki, YAP-ın yaradılmasının 29-cu ildönümü münasibətilə təşkil olunan "Yaşıl Marafon" kampaniyası çərçivəsində YAP üzvləri ETSN-in nümayəndələri ilə birgə Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində Abşeron yarımadasının iqliminə uyğun 1000-dən artıq müxtəlif növ ağac əkiblər.

Bu kampaniya ölkəmizdə həyata keçirilən yaşıllaşdırma aksiyasına növbəti bir töhfədir. Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, ekoloji vəziyyətin qorunmasına, yaşıllıqların və parkların salınmasına xüsusi diqqət yetirmişdir. Hazırda bu nəcib siyasət Azərbaycan Prezidenti, Yeni Azaərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. YAP üzvləri də Ulu Öndərimiz tərəfindən qoyulan bu ənənəni layiqincə davam etdirməkdədir.















# Ermənilərin törətdiyi ekoloji terror: 54 min hektar meşə sahəsi məhv edilib!



Azərbaycan 44 günlük Vətən müharibəsini qələbə ilə başa çatdıraraq tarixi ədaləti bərpa etdi. Düşməni torpaqlarından qovaraq, diz çökdürdü. Bu müharibədə xalqımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. Dövlət başçısı Sərkərdəlik məharəti nümayiş etdirərək Qarabağın Xilaskarı kimi tarixə adını həkk etdi. Bu gün üçrəngli Azərbaycan bayrağının Qarabağda və Şərqi Zəngəzurda qürurla dalğalanması ölkəmizin gücünün və qüdrətinin təntənəsidir. Erməni vandalları, faşistləri tərəfindən viran qoyulmuş şəhər və kəndlərimizə Azərbaycan bayrağı sancılıb. Bu gün həmin ərazilərin bərpası ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur. Bu əzəli torpaqlarımızın hər bir abidəsi, hər bir muzeyi, eləcə də yaşayış yerləri, infrastrukturu yenidən qurulur və bərpa olunur. Erməni vandalları 30 il ərzində insanları qətlə yetirib, soyqırımları törətməklə yanaşı, ekoloji terrorlar da həyata keçirərək ətraf mühitə, təbiətə böyük zərbələr endiriblər. Bu əlbəttə ki, təbiətə qarşı genosiddir.

## “İŞĞALA QƏDƏR BİZİM MEŞƏLƏRİMİZİN ÜMUMİ HƏCMİ TƏQRİBƏN 220-230 MİN HEKTAR İDİ”

Faşist ideologiyaya malik ermənilər 30 ilə yaxın işğal altında olmuş Azərbaycan ərazilərindəki meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara böyük zərbə vurub. Azərbaycanın ”Qırmızı Kitabı”na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının ”Qırmızı Siyahısı”na daxil edilmiş nadir təbiət inciləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan dəyib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, ”Bizim meşə fondumuz da məhv edilib, 54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb”. Dövlət başçısı onu da qeyd edib ki, işğala qədər bizim meşələrimizin ümumi həcmi təqribən 220-230 min hektar idi.

Zəngilan bölgəsi də hələ qədim zamanlardan sıx meşələri, münbit vadiləri, yaşıl bitki örtüyü, gur sulu çayları ilə diqqəti cəlb etmiş məkan olub. Buranın Çinar meşəsi təkcə Zəngilan rayonunun deyil, bütün Azərbaycanın flora-faunasının zənginliyində müstəsna əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Zəngilan rayonunda, Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada ikinci, bəlkə də birinci meşədir. Erməni vandallarının çirkin əməllərinin nəticəsi olaraq bu meşəyə də böyük zərbə vurulub. Cənab Prezidentin bildirdiyi kimi, ”Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın”.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də məhz işğaldan azad olunan ərazilərdə bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Bu baxımdan həmin ərazilərdə bioloji müxtəlifliyin bərpası, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsi istiqamətində işlər aparılır.

## TƏBİƏT MÖCÜZƏSİ - TOPXANA MEŞƏSİ

Ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Topxana meşəsini də əhatə edir. Bildiyimiz kimi, Topxana meşəsi Şuşanın qədim tarixə malik nadir sərvətlərindəndir. Ötən əsrin 80-ci illərin sonunda baş verən hadisələrin başlanğıcı da elə Topxana meşəsinin qırılmasından başlanmışdır. 1988-ci ilin noyabrın 17-də Şuşada yerləşən məşhur, əzəmətli palıd, çinar meşəsi - Topxana meşəsinin qırılmasına etiraz əlaməti olaraq Azərbaycan xalqı Azadlıq meydanında ilk mitinq keçirdi. Mitinqin təşkil olunmasında məqsəd xalqın səsini Moskvaya çatdırmaq idi. Topxana meşəsinin qırılması 1988-ci ilin anti-sovet mitinqlərinin alovlanmasına səbəb oldu və beləliklə, 17 noyabr 1988-ci ildə Meydan hərəkatı başladı. Əlbəttə ki, Şuşa şəhəri yaxınlığında yerləşən Topxananın adı 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı mühasirə etdiyi zaman topların yerləşdirildiyi yer olması ilə bağlıdır.

Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qarağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi. Mənbələrdə də qeyd olunduğu kimi, Topxananın heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar olub.İşğalçı ermənilər sərvətlərimizi talan edib, meşələrimizi də qırıb daşıyıblar. Məlumatlara istinadən qeyd edək ki, Topxanadan 2000 ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, ”Ağzı yastı” kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib.

Şuşa rayonu ərazisindəki torpaqların 20 faizini əhatə edən bu meşədə yaşı bilinməyən müxtəlif növ ağaclar vardı. Lakin ermənilər işğal dövründə təbii sərvətlərimizi də talayıb, meşələrimizi də qırıblar. 1988-ci ilin noyabrında başlanan ekoloji terror və 30 ilə yaxın işğal müddətində Topxanada minlərlə qiymətli ağac kəsilərək məhv edilib. Artıq yeni bir dövr başlanıb: abadlıq və quruculuq dövrü. Azərbaycanda işğaldan azad olunan ərazilərdə aparılan genişmiqyaslı layihələr bu məkanların ağciyərləri hesab olunan meşələrin də bərpasından yan ötməyib. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində ”Regional İnkişaf” İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində ağacəkmə aksiyası çərçivəsində 3 hektar ərazidə dağdağan, göyrüc, saqqızağacı, qarağac əkilməsi, əraziyə 100 kiloqram palıd toxumu səpilməsi artıq bu meşəyə yeni həyatın qayıtmasından xəbər verir. 28 il işğal altında qalmış Topxana meşəsində dağıdılmış bitki örtüyü, məhvedilmiş heyvanat aləminə yeni nəfəs gəlib. Qələbəmizin simvolu olan Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşanın hər bir məkanında qaynar həyat başlanıb.

*Nəzakət ƏLƏDDİNQIZI*

ARAŞDIRMA

# Sosial şəbəkə terroruna qarşı necə mübarizə aparılmalıdır?



**Sosial mediadan artan istifadə cəmiyyətdəki hər bir fərdə öz fikirlərini bölüşmək imkanı verir. Baxmayaraq ki, biz bunu müsbət və əlverişli vəziyyət kimi görürük. Manipulyasiya xarakterli, təxribat xarakterli, yalan və çaşdırıcı məlumatların yayılması baxımından vəziyyət o qədər də ürəkaçan deyil.**

Sosial şəbəkələrdə "əyləncə və ya siyasi təbliğat məqsədi ilə" saxta xəbərlərin və dezinformasiyaların tirajlandığını düşünənlərlə yanaşı, yaşanan informasiya çirklənməsinin "maraqlı dairələr tərəfindən qəsdən edildiyini" söyləyənlər də var. Dünyada və ölkəmizdə sosial media vasitəsilə yaşanan ictimai-siyasi hadisələrə, müxtəlif terror hadisələrinə nəzər saldıqda, istehsal edilən informasiya çirklənməsinin



təbliğat məqsədi daşıdığı və bu işin mütəşəkkil şəkildə yaradıldığı görünür.

Hər kəs mənbəsi məlum olmayan məlumatlara, videolara, səs yazılarına və xəbərlərə mühakimə etmədən inanır və düşünmədən paylaşır. Buna görə də mövcud informasiya çirklənməsinə xidmət edir. Bu səbəbdən saxta xəbərlər bu gün həll edilməli olan ən ciddi problemlərdən biridir.

## Saxta xəbərlərlə necə mübarizə aparmalı?

Saxta xəbərlərlə mübarizənin təməl daşı məlumatı asanlıqla əldə etməyə çalışmaq deyil, "doğru və etibarlı məlumat"a çatmağa çalışmaqdır. Beləliklə, hansı məlumatın doğru və etibarlı olduğunu necə bilək? Bu-



nun üçün bir az vaxt sərf etmək və bəzi vacib istifadə vərdişləri əldə etmək lazımdır.

Əvvəla, xüsusilə sosial mediada "tənqidi baxış", "təsdiqlənməmiş məlumatları paylaşmamaq", "məlumatlara sağlam şübhə ilə yanaşmaq" və "məlumatların hansı mənbələrdən əldə edildiyi barədə təsəvvürə sahib olmaq" bunlar arasındadır. Bunlara əlavə olaraq paylaşmadan əvvəl "ümumi araşdırma aparmaq və ən azı 3 fərqli etibarlı mənbədən əldə edilən məlumatı təsdiqləmək" doğru məlumatlara çatmaq üçün şərtdir. Məsələn, "TinEye" və "Google Reverse Image Search" alətləri ilə fotonun nə vaxta aid olduğu və daha əvvəl dərc edilib-edilməməsi ilə bağlı məlumatlara daxil olmaq mümkündür.

Bəzi saytlar parodiya, reklam və ya saxta xəbərlər məqsədi ilə qurulur. Məlumdur ki, sosial şəbəkələrdə artıq "trol" adlandırılan bədxah insanlar və ya qruplar özlərini bu işə həsr edirlər. Yəni sadəcə olaraq saxta xəbərlər, şəkillər hazırlamaq, sosial şəbəkələrdə insanları çaşdırmaq üçün çalışanlar az deyil. Hətta bu biliyə sahib olmaq belə, "Niyə internetdəki hər bir məlumata inanmayaq?" sualının cavabıdır.

2013-cü ildə "Associated Press" adlı bir xəbər agentliyinin hesabından "Tvitter"-də "Son dəqiqə: Ağ Evdə iki partlayış oldu və Barak Obama yaralandı" yazan bir tvit dərc edildi. Bu tvit 5 dəqiqədən az müddətdə 4 min dəfə paylaşıldı. Sonradan bu hesabın ələ keçirildiyi və paylaşılan məlumatların yalan olduğu açıqlansa da, partlayışda ABŞ prezidentinin ölmə ehtimalı birjanın çökməsinə səbəb olur və bir gündə 140 milyard dollara yaxın vəsait itirilir. Saxta xəbərlərin təsirinin nə



qədər böyük ola biləcəyini görürsünüzmü?

Necə ki, "Həqiqət dünyanı ayaqqabı geyinmədən üç dəfə dolaşır" deyimi kimi, saxta xəbərlər də doğru məlumatdan qat-qat tez yayılır. "Science" jurnalında dərc edilən araşdırmada 2006-2017-ci illərdə "Tvitter"-də paylaşılan, doğru və ya yalan olduğu sübut edilmiş bütün xəbərlərin yayılması araşdırılır. Nəticələr göstərir ki, dezinformasiya həqiqi məlumatdan daha çox, daha sürətli və daha geniş yayılır. Gülməli olan odur ki, bu qədər dezinformasiyanın yayılmasına səbəb bot hesabları deyil, real insanlardır.

## Bəs niyə yalan xəbərlərə inanırıq?

Bunun bir çox səbəbi ola bilər. Onlardan biri odur ki, biz zehni qabiliyyətimizi gərginləşdirmək istəmirik. Başqa sözlə desək, bir xəbərlə rastlaşdıqda onun doğru və ya yalan olduğunu düşünmək istəməyə bilərik. "Niyə səhv olsun, insan niyə yalan məlumat yaysın?" deyirik. Qarşılaşdığımız bütün xəbərləri həqiqət kimi qəbul edə bilərik. Ancaq sosial media hesabı olan hər kəsin istədiyi mesajı yaya biləcəyini nəzərə alsaq, gördüyümüz hər məlumatı doğru kimi qəbul etmək məntiqli görünmür.

Psixologiyada "təsdiq qərəzi" adlanan anlayış bizim öz düşüncələrimizə və inanclarımıza bənzəyən məlumatları həqiqət kimi qəbul etməyimiz deməkdir. Başqa sözlə desək, öz baxışımızı saxtalaşdıran bir xəbər gördükdə xəbərin düzgünlüyünü şübhə altına ala bilərik, lakin çox vaxt bizim fikirlərimizə uyğun gələn xəbəri birbaşa olaraq həqiqət kimi qəbul edirik.

Xüsusilə münaqişələr kimi kritik anlarda insanlar hadisə ilə bağlı bütün məlumatları öyrənmək və partiyasının uğurlarını dərhal bəyənib paylaşmaq istədikləri üçün dezinformasiyanın yayılması daha sürətli ola bilər. Saxta və yalan xəbərlərin vəsvəsəsi həm insanların öz fikirlərini təsdiqləmək, həm də bu maraqlı məlumatı yayan şəxs olmaq imtiyazından istifadə etmək istəyindən



qaynaqlana bilər.

Maraqlıdır ki, hətta yanlışlığı sübuta yetirilən xəbərlər də çox vaxt paylaşılmağa davam edir. Beynimiz uzun müddət yadda saxladığımız məlumatları həqiqət kimi qəbul edə bilir. Səhv məlumat düzəliş mesajından əvvəl mövcud olduğundan, uzun müddət mövcud olan məlumatları düzgün olaraq xatırlaya bilərik. Bu, səhv məlumatın düzəldildiyini bilsək də, onu daha aydın xatırlamağımıza səbəb olur.



## Saxta xəbərlərə kim inanır?

Bu sualı eşidəndə ağlınıza gələn ilk cavab "başqaları" ola bilər. Amma əslində bu sualın dəqiq cavabı yoxdur. Deyə bilmərik ki, A qrupunun üzvləri olan və ya B fikrini dəstəkləyənlər saxta xəbərlərə daha çox aldanır.

## Saxta xəbərlərdən özümüzü necə qoruyaq?

İlk addım skeptik olmaqdır. Etibar etdiyiniz mənbə belə, zaman-zaman, bəlkə də bilərəkdən və ya istəmədən yanlış məlumat paylaşa bilər. Odur ki, rastlaşdığımız xəbərlərə şübhə ilə yanaşa bilsək və analitik düşünsək, dezinformasiyanın yayılmasının



qarşısını almış oluruq. Doğru olub-olmaması barədə məlumat paylaşmazdan əvvəl bir neçə saniyə düşünmək belə saxta xəbərlərin yayılma sürətini xeyli azalda bilər.

SİA məsələ ilə bağlı araşdırma apararaq texnoloq, ekspert, sosioloq və psixoloqların bu barədə fikirlərini öyrənib.

Məsələ ilə bağlı İKT üzrə ekspert Rəşad Cəfərov öz fikirlərini bu cür ifadə edib: ”Çox təəssüf ki, bu gün sosial şəbəkələrdən istifadənin mahiyyəti bəzi qrupların bu şəbəkələrə sirayəti ilə ciddi şəkildə dəyişikliklərə məruz qalmaqdadır. Hər bir sosial şəbəkə istifadəçisi bilir ki, illər əvvəl nə ”Facebook”da, nə Youtube”da, nə də digərlərində bu qədər qərəzlilik, təhqir, cinayətə çağırış və sair kimi məzmunlu fikirlərə demək olar ki, rast gəlinməzdi. Günlər keçdikcə isə həm istifadəçilərin artması, üstəgəl sosial şəbəkələrin təqdim etdikləri yeni yeni funksiyalar da qaraguruh insanlar üçün əlverişli şərait yaratdı.

Bu gün sosial şəbəkələrdə ağlımıza gələn, eləcə də bizim ağlımıza gəlməyən cinayət tərkibli addımlara rast gəlirik. Kimi dələduzluq yolu ilə pul qazanmaq istəyir, kimi xoşu gəlməyən kiməsə qarşı ”gözdənsalma” kampaniyasına başlayır, hətta hakimiyyətlərdə çevrilişə, dövlətçiliyə təhdid kimi hallara da rast gəlirik. Bundan başqa artıq insanlar sosial şəbəkələrə ”köçüb yaşamağa” başlayıblar da deyə bilərik. Ətrafımızda çox-çox insanlar var ki, şəxsi həyatlarında olan məsələləri real ünsiyyətlə deyil, sosial şəbəkələr üzərindən insanlarla bölüşür, reaksiyalar gözləməyə başlayır. ”Like”a görə küsmələr, sən mənim paylaşımıma fikir bildirmədin kimi incikliklər və s.

Sosial şəbəkələrdə həm cinayət tərkibli, həm də ”mənəvi terror” tərkibli davranışların artması bütün ölkələri narahat etməkdədir. Sosial şəbəkələrdəki söz azadlığı vicdan azadlığını üstələməməlidir. Təhqir hər yerdə təhqirdir. Təəssüf ki, sosial media peşəkar medianın da işinə həddən çox ciddi problemlər yaratmaqdadır. Elə bunun özü də peşəkar mediaya qarşı terrordur. Qayda-qanunsuz, nizamsız, intizamsız hər yerdə xoşagəlməz hadisələr daha çox olur. Odur ki, bu xoşagəlməz hadisələrin sayını azaltmaq üçün necəsə qayda-qanun yaratmaq lazımdır. Bir çox ölkələrdə müxtəlif addımlar atılır. Bəzi ölkələrdə ümumiyyətlə bir neçə sosial şəbəkədən istifadə qadağan olunub, bəzi ölkələrdə qeydiyyat zamanı müxtəlif əlavə şərtlər tətbiq olunur, bəzi ölkələrdə kontentə nəzarət mexanizləri işləyir, bəzi ölkələrdə qanunvericilikdə dəyişikliklər etməklə fəsadların qarşısını almağa çalışırlar və s. Bu sosial şəbəkə terrorundan qorunmağın bir tərəfi, digər tərəfdə isə bu şəbəkələrin istifadəçiləridir. Bu günümüzdə daha çox istifadəçilər də özlərini bu tip terrorlardan qorumağın yollarını öyrənməlidirlər. Qarşılaşdıqları xoşagəlməz hallar zamanı hansı addımların atılmasını bilməlidirlər. Real həyatda özümüzü necə qoruyuruqsa, virtual məkanda da özümüzü o cür qorumalıyıq. Real həyatda birinə desən ki, ”şəxsiyyət vəsiqəni mənə ver, sabah qaytaracam” heç kim, heç kimə verməz. Amma, virtual məkanda tanımadığı adamlara belə fərdi məlumatlarını paylaşırlar. Bunun üçün də ciddi şəkildə maarifləndirmə işləri görülməlidir. Bütün ölkələrdə aşağı-yuxarı sosial şəbəkələrin yaratdığı problemlər demək olar eynidir. Sosial şəbəkələr sərhədsiz olduğu kimi, onlara qarşı tədbirlər də sərhədsiz görülməlidir, yəni bütün ölkələr daxili tədbirləri ilə bərabər, birgə kompleks tədbirlərin də üzərində işləməlidir”.

**Sosioloq, Sağlam Cəmiyyət Hərəkatının sədri Lalə Mehralı isə məsələnin sosioloji yanlarına toxunub:** ”Bu əslində qanunla tənzimlənməlidir. İnsanlar yaydığı məlumatın doğru olub olmadığının məsuliyyətini daşımalıdırlar. Yəni, bir məlumatı paylaşırsa onun doğruluğunu araşdırmalıdır. Sosial şəbəkədə bir sayt xəbər paylaşan kimi hamısı bir qayda ilə onu paylaşır. Saytlar və mətbu orqanlar bu məsələdə maksimum diqqətli olmalıdırlar.

Sosial şəbəkədə paylaşılan bu tip paylaşımlar əslində ”mən saxtayam”, ”mənə inanma” mesajı ötürür. Məlumatın təqdim edilmə forması, kim tərəfindən təqdim edilməsi, cümlələrin quruluşu, videonun çəkilişi, kadrların düzülüşü özünü ələ verir. Peşəkar insanlar bunu tez anlayır. Sadı insanlar isə



aldanıb panikaya düşür. Biz, bu təcrübələri dəfələrlə yaşadıq. Bu tip məsələlərdə nisbətən təmkinli olmaq özü insanı saxta xəbərdən qoruyur”.

**Psixoloq Zeynəb Eyyubova da problemin psixoloji yanlarını izah edib:** ”Ümumiyyətlə, sosial şəbəkə dedikdə hər bir insan özü üçün araşdırmaçı olmalıdır. Yəni, aldığı məlumatları analiz etməlidir. Xəbər portalının düzgün olması, reklam üçün işləyib işləmədiyi dəqiqləşdirilməlidir. Biraz araşdırmaçı olan insan həmin səhifənin paylaşımlarından onun necə bir səhifə və yaxud sayt olduğunu biləcək.

İnsanlar inanmağa meyillidirlər. İnsanlar daha çox yaxşısının içində pisi görürlər. Haradasa da paylaşım gördükdə səhifələr də reytinq xətrinə ardarda paylaşır və insanlar da buna inanır.



Bəzən bir insandan soruşursan ki, ”doğurdan, sən bu xəbərə inanırsan?!”. O da cavabında deyir ki, ”heç bilirsən bunu nə qədər səhifə paylaşıb, yalan olsa paylaşmazlar?!”.

Son dövr serialların da məğzindən insanlara bu mesaj verilir ki, sosial şəbəkələr vasitəsilə insanlar birini ucal-da,digərini də yerlə yeksan edə bilər”.

*Ayşən Vəli*

# Qarakənd faciəsi: “Erməni terrorunun növbəti izi”

EKSPERT RƏYİ

”Düz 30 il bundan əvvəl, 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində içərisində görkəmli Azərbaycan ziyalılarının və dövlət xadimlərinin yer aldığı hərbi vertolyot partladıldı. Maraqlı burasında idi ki, içərisində tanınmış dövlət xadimlərinin və ziyalıların olduğu helikopteri hərbi vertolyotlar mühafizə məqsədilə müşayiət etməliydilər, amma etmədilər”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Züriyə Qarayeva deyib.



Politoloqun sözlərinə görə, istintaq materiallarına görə, vertolyotun içərisində yanğın baş verməzdən əvvəl atışma olub: ”Bu da bir daha faciənin əvvəldən planlaşdırılan məkrli bir qəsd olduğunu təsdiqləyir. Faciənin terror aktı olduğunu göstərən digər məqam qara qutunun açılmasının qadağan edilməsi idi. Üstəlik Rusiyadan olan generallar faciə qurbanlarının siyahısında yer almayıblar. Faciə qurbanlarına gəlincə, 20 noyabrda həlak olanlar sırasında dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, dövlət müşaviri Məhəmməd Əsədov, baş nazirin müavini Zülfi Hacıyev, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, Prezident Aparatında şöbə müdiri Osman Mirzəyev, nazir müavini Qurban Namazəliyev, QMB-nin prokuroru İqor Plaviski, QMB-nin Daxili İşlər İdarəsinin rəisi Vladimir Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Jinkin, Qazaxıstan DİN-nin müavini Sanlal Serikov, milis general-mayoru Mixail Lukaşov, polkovnik-leytenant Oleq Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmmədov, telejurnalist Alı Mustafayev, AzTV-də işıqçı Arif Hüseynzadə, video-operator Fəxrəddin Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Kotov, vertolyot heyətinin üzvləri Gennadi Domov və Dmitri Yarovenko var idi”.

Z.Qarayeva vurğulayıb ki, 30 il keçməsinə baxmayaraq faciə ilə bağlı hələ də müəmmalar var: ”Lakin tək gerçək ermənilərin iyrənc, terrorçu xislətidir. Bu terror 21-ci əsrin 21-ci ilinədək istər mülki insanlarımıza, istər ordumuza, istər təbiətimizə, istərsə də maddi mədəniyyət nümunələrimizə qarşı göstərilib. Bütün bu faciələrin qisası mənəvi olaraq alınsa da, beynəlxalq hüquqa əsaslanaraq maddi təzminat məsələsi də gündəmə gətirilməli, düşmən hər mənada layiqli cavabını almalıdır”.

*Aysel Məmmədova*

# Gürcü politoloq: “Azərbaycan postmünaqişə dövründə sülhün möhkəmləndirilməsi üçün çoxsaylı addımlar atıb”



**Ermənistandakı siyasi gərginlik, iqtisadi böhran təkcə bu dövlətin daxilində deyil, bütövlükdə region üçün ciddi problemlər yaradır, bölgədə sabitliyin pozulmasına səbəb olur. Bu sözləri AZƏRTAC-a açıqlamasında Gürcüstanın Terrorizm və Siyasi Zorakılığın Araşdırılması üzrə Mərkəzin direktoru, tanınmış politoloq Badri Natçkebiya söyləyib.**

O qeyd edib ki, Azərbaycanla müharibədə sarsıdıcı zərbə alaraq məğlubiyyətə uğrayan bir ölkə indi sabitlik üçün çalışmalıdır. Ermənistandakı siyasi qruplar və destruktiv qüvvələr isə vəziyyəti daha da gərginləşdirir, sabitliyin pozulmasına zəmin yaradır. Son günlər Rusiya, Fransa, ABŞ və digər dövlətlərdəki erməni lobbisi terror qruplarını maliyyələşdirməkdə davam edirlər. Bu da təbii ki, Azərbaycanla sərhəddə destruktiv fəaliyyətə və terrorun daha da artmasına zəmin yaradır.

Politoloq bildirib ki, bunun qarşısı alınmasa, daha böyük faciələr baş verə bilər. Ermənistanın destruktiv fəaliyyətinin qarşısını isə təkcə Azərbaycan deyil, dünyanın hegemon dövlətləri, beynəlxalq təşkilatlar birgə almalıdırlar.

B.Natçkebiya deyib: ”Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsindən sonra regionda yeni reallıqlar yaranıb. Azərbaycan postmünaqişə dövründə sülhün möhkəmləndirilməsi üçün çoxsaylı addımlar atıb. Zəngəzur dəhlizi ilə bağlı təklif olduqca yaxşıdır. Bu layihənin reallaşdırılması üçün Ermənistan dövləti səylərini artırmalı, Azərbaycanla mövqelərin yaxınlaşdırmalıdır. Ermənistan rəhbərliyi başa düşməlidir ki, Azərbaycanın təklif etdiyi layihələr elə bu ölkənin inkişafı üçün də geniş imkanlar yaradacaq”.

Politoloq, həmçinin vurğulayıb: ”Lakin təəssüflər olsun ki, bu layihənin əleyhdarları var və onlar regionda sülh quruculuğu prosesinə əngəllər yaratmaq istəyirlər”.

# Ermənilər şikayət etdi, “Facebook” Korotçenkonun səhifəsini yenidən bağladı



**“Facebook” sosial şəbəkəsi Rusiyanın nüfuzlu ”Natsionalnaya oborona” jurnalının baş redaktoru, məşhur hərbi ekspert İqor Korotçenkonun səhifəsini yenidən üç gün müddətinə bağlayıb. SİA-nın məlumatına görə, bu barədə ekspert öz ”Telegram” kanalında bildirib. Onun sözlərinə görə, səhifə ermənilərin şikayəti ilə Azərbaycanın əvvəllər işğalda olmuş ərazilərdə dağıntıların göstərildiyi filmə görə bağlanıb. ”Erməni silahlı qüvvələrinin vəhşilikləri barədə faktları ört-basdır etməklə ”Facebook” və Mark Zukerberq bəşəriyyətə qarşı cinayətlərə haqq qazandırır və de-fakto bu cinayətlərin iştirakçısına çevrilir. ”Facebook” rəhbərliyi artıq ikinci dəfə Kaliforniyadakı erməni lobbisinin ”çoxsaylı müraciətlərini” nəzərə alaraq mənim səhifəmə girişi üç gün müddətinə bağlayıb. Maraqlısı odur ki, filmdəki faktların həqiqiliyini azad edilmiş bölgələrə səfər etmiş səfirlər, xarici jurnalistlər və ekspertlər tərəfindən təsdiqlənib. Amma görünür ki, ”Facebook” üçün bu, önəmli deyil. Önəmli olan Ermənistan üçün öldürücü olan həqiqətin ört-basdır edilməsidir”, - deyə İ.Korotçenko bildirib.**

**Xatırladaq ki, ”Facebook” noyabrın 19-da da İ.Korotçenkonun səhifəsini üç gün müddətinə bağlasa da, qısa müddət ərzində çoxsaylı müraciətlərdən sonra açmışdı.**

# 29 illik şərəfli tarix!

## YAP-ın yaranmasının 29 illiyi ilə bağlı Lənkəran şəhərində ağacəkmə aksiyası keçirilib

YAP-ın yaranmasının 29 illiyi ilə bağlı partiyanın fəalları tərəfindən Lənkəran şəhərində ağacəkmə aksiyası keçirilib. Aksiyada YAP Lənkəran şəhər təşkilatının sədr əvəzi, ŞİH başçısının birinci müavini Möhübbət Babayev, YAP Lənkəran şəhər təşkilatının əməkdaşları, YAP Lənkəran şəhər təşkilatının gənclər birliyi və ərazi ilk partiya təşkilatlarını təmsil edən 500 nəfərədək fəal iştirak edib. Aksiya zamanı 1200 ədəd şam və küknar ağacları əkilib. Əkilən ağaclara lazımi aqro-texniki qulluq göstərilməklə suvarılıb və dayaqlarla bərkidilib.



*Rəfiqə Hüseynova*

## YAP Biləsuvar rayon təşkilatı partiyanın yaranmasının 29-cu ildönümünə həsr olunmuş tədbir keçirib

Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı tərəfindən partiyanın yaradılmasının 29-cu ildönümünə həsr olunmuş tədbir keçirildi.Tədbirdə Biləsuvar rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov, Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədr əvəzi Aqşin Bağırov, idarə, müəssisə və təşkilat rəhbərləri, partiya fəalları iştirak ediblər. Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin rayonun mərkəzi meydanında yerləşən abidəsini ziyarət edərək gül dəstələri düzüblər. Tədbirin açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbiri giriş sözü ilə açan YAP Biləsuvar rayon təşkilatının sədr əvəzi Aqşin Bağırov bütün siyasi həmfikirlərini partiyanın yaradılmasının 29-cu ildönümü münasibətilə təbrik etdi. Bildirdi ki, 21 noyabr 1992-ci il tarixi ictimai-siyasi fikir, yeni, müasir dövlətçilik tariximizin ən əlamətdar və unudulmaz günlərindən biri kimi milli təqvimimizdə daim yaşayacaq. Məhz həmin gün Yeni Azərbaycan Partiyasının yarandığı gündür. Bu gün öz ətrafında 800 minə yaxın insanı birləşdirməklə Yeni Azərbaycan Partiyası nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib. Heç şübhəsiz ki, bütün bu nailiyyətlər Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz təməlin və bu gün Prezident, Müzəffər Ali Baş Komandan, partiyamızın sədri İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasətin nəticəsində mümkün olub. Cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir.

Tədbirdə Biləsuvar rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov çıxış edərək müstəqilliyin əvvəllərində ölkəmizdə bütün sahələrdə tənəzzülün yaşandığı dövrdə yaranan partiyanın Azərbaycanın inkişafında, dövlətin güclənməsində, xalqımızın firavanlığına qovuşmasında misilsiz xidmətlər göstərdiyini vurğuladı. Bildirdi ki,Ulu Öndər Heydər Əliyevin yaratdığı partiya ötən illər ərzində siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış edərək qısa müddət ərzində ümumxalq partiyasına çevrilib.

Tədbirdə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov çıxış edərək bildirdi ki, Ümummlli Liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyini xilas etməklə yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşdirilməsinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü milli ideya ölkəmizin bütün vətəndaşlarını, dünya azərbaycanlılarını və Azərbaycana bağlı bütün insanları bir məqsəd, bir ideya ətrafında birləşdirə bildi. Digər çıxış edən partiya veteranı Akif Kazımov və gənc partiya üzvü Ülvi Həzizadə Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən dövr ərzində əldə edilən uğurlardan danışdılar. Daha sonra YAP Biləsuvar rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəallarına fəxri fərman və gənc partiya üzvlərinə partiya vəsiqələri təqdim edildi. Sonda YAP Biləsuvar rayon təşkilatının inzibati binasının qarşısında xatirə şəkli çəkdirildi.

*Rəfiqə*

## Ağcabədidə "Yeni Azərbaycan Partiyası Qələbələr Partiyasıdır" adlı videokonfrans keçirilib



Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümü münasibətilə "Yeni Azərbaycan Partiyası Qələbələr Partiyasıdır" mövzusunda videokonfrans keçirilib. Konfransı Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov açıb. İlk olaraq, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Sonra Rövşən Əhmədov geniş məruzə ilə çıxış edərək bildirib ki, xalqa və vətənə, dövlətçiliyə xidmət edən YAP Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafına töhfələrini verib. YAP-ın qələbələrinin kökündə Ümummilli Lider Heydər Əliyevin ideyaları, Onun tərəfindən müəyyənləşdirilmiş strateji xətt və inkişaf strategiyası dayanır. YAP iqtidarda olduğu müddətdə, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib və ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib.



Konfransda ADPU ərazi ilk partiya təşkilatının sədri Anar Kərimli, Heydər Əliyev Mərkəzinin direktor əvəzi Rövşanə Əliyeva, Qaradolaq kənd ərazi ilk partiya təşkilatının sədri Ruslan Quliyev, Hacıbədəlli kənd musiqi məktəbinin direktoru Məhbubə Beşirova, Qaravəlli kənd ərazi ilk partiya təşkilatının sədrinin müavini, GB-nin üzvü Hüseyn Fərzəliyev çıxış edərək, öz mülahizələrini konfrans iştirakçılarının diqqətinə çatdırıb. Daha sonra Yeni Azərbaycan Partiyasının təsis olunmasının 29-cu ildönümü münasibətilə Ağcabədidə keçirilən silsilə tədbirlərin davamı olaraq, Ağcabədi-Beyləqan, Ağcabədi-Zərdab magistral yollarının kənarında ağacəkmə kampaniyası keçirilib. Bu kampaniya çərçivəsində, həmçinin Ağcabədi şəhərindən "Laçın obaları" adlanan əraziyədək uzanan "Zəfər prospekti"ndə 44 günlük Vətən müharibəsinin rəmzi olaraq 44 ədəd Eldar şamı əkilərək, suvarılıb.

*Zümrüd BAYRAMOVA*

## Şəmkirdə Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü qeyd olunub

Yeni Azərbaycan Partiyasının təsis olunmasının 29-cu ildönümü münasibətilə YAP Şəmkir rayon təşkilatı ağacəkmə aksiyası keçirib. Tədbirdə YAP Şəmkir rayon təşkilatının rəhbərliyi, rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev, hüquq-mühafizə orqanlarının rəhbərləri və təşkilatın fəalları iştirak edib.Tədbir iştirakçıları öncə müasir müstəqil Azərbaycanın memarı və qurucusu, YAP-ın yaradıcısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucadılmış abidəsini ziyarət edib, abidə önünə tər çiçəklər düzüblər.





Sonra ulu öndər Heydər Əliyevin və vətənimizin azadlığı uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib. Daha sonra rayonda təmiz ekoloji mühitin yaradılması və yeni yaşıllıqların salınması üçün aksiya iştirakçıları tərəfindən şəhər ərazisində yerləşən Şəhidlər xiyabanında həmişəyaşıl, Eldar şamı, gül kolu əkilib, quruyan ağaclar yeniləri ilə əvəz edilib. Təşkilatın fəalları əkilən ağacları suvarıblar.

*Rəfiqə*

# Mətbuat Şurasında “Şərq qapısı” qəzetinin 100 illiyi qeyd edilib




Bu il muxtar respublikanın aparıcı mətbuat orqanı olan ”Şərq qapısı” qəzetinin yaranmasının 100-cü ildönümü tamam olur. Milli mətbuatımızın inkişafına böyük töhfələr vermiş, muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında müstəsna rol oynayan qəzet Naxçıvanın 100 illik tarixinin yazılı salnaməsidir. SİA xəbər verir ki, qəzetin yaranmasının 100 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, AMEA-nın vitse-prezidenti Akademik İsa Həbibbəyli və respublikanın tanınmış mətbuat orqanlarının baş redaktorları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan MŞ sədri Əflatun Amaşov bildirib ki, 1921-ci ildə ilk sayı çapdan çıxmış



”Şərq qapısı” qəzeti yalnız Naxçıvan Muxtar Respublikasının deyil, bütövlükdə Azərbaycanın ən uzunömürlü kütləvi informasiya vasitələrindəndir. Mətbuat orqanı ölkəmizin ədəbi-bədii mühitinin, ictimai rəyinin formalaşmasında, milli şüurun və təfəkkürün aşılanmasında müstəsna tarixi xidmətlərilə seçilib. Klassik mətbuatımızın ənənələrinə sadiq qalaraq oturuşmuş jurnalistika məktəbinə çevrilib. ”Ötən əsrin 70-ci illərindən başlayaq qəzet Naxçıvanın, ümumən respublikanın aparıcı fikir, düşüncə katalizatoru kimi populyarlaşmağa başlayıb. Bu, həmin dövrdə hakimiyyətə ulu öndər Heydər Əliyevin gəlişi ilə bağlı idi. Mətbuatın ictimai roluna hər zaman böyük önəm vermiş ümummilli lider ”Şərq qapı”sını fərqləndirirdi. Bu, həm nəşrin tarixinə böyük dəyər idi, həm mətbuatın ictimai missiyasına həssas yanaşmanın, həm də idarəçilikdə mətbuat amilinə önəm verilməsinin bariz göstəricisiydi”. - deyən Ə.Amaşov ”Şərq qapısı”nın Azərbaycan xalqının milli istiqlal hərəkatına töhfəsindən də söz açıb. O, diqqəti nəşrin 1990-1993-cü illərdəki fəaliyyətinə yönəldərək vurğulayıb ki, həmin zaman kəsiyində qəzet Heydər Əliyevin muxtar respublikada gördüyü işləri işıqlandırıb, məhrumiyyətlərə baxmayaraq cəsarət nümayiş etdirib. Bu cəhət onu eyni zamanda ideoloji mərkəz kimi tanıdıb.

Ə.Amaşov çıxışında ”Şərq qapısı” qəzetinin müstəqillik illərindəki fəaliyyətinə də toxunub. O bildirib ki, hələ Sovetlər Birliyi dönəmində nəşrin 50 illik yubileyinin keçirilməsi təşəbbüsü ilə çıxış etmiş ulu öndər onun 75 illik yubileyinin yüksək səviyyədə təşkilinə də həssas yanaşıb. Sonrakı illərdə nəşrin 80, 85, 90 və 95 illik yubiley tədbirlərinin düzənlənməsi xoş ənənəyə çevrilib. ”Bu günün ”Şərq qapısı” müasir texnologiyalarla təchiz edilmiş, özünün internet resursuna, mətbəəsinə, ofisinə malik jurnalistika məktəbidir. Qəzetdə başlıca meyar peşəkarlıqdır. Əlbəttə, peşəkarlıq vətənpərvərliklə çulğalaşıb ki, bu da tarixi ənənələrdən qaynaqlanmaqdadır. ”Şərq qapısı”nın 100 yaşının təntənəli şəkildə qeyd edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisin sədri hörmətli Vasif müəllim Talıbov müvafiq sərəncam imzalayıb. Biz qərara gəldik ki, Azərbaycan Mətbuat Şurasında ölkənin aparıcı media vasitələrinin rəhbərlərinin iştirakı ilə də qəzetin yubileyi ilə bağlı toplantı keçirək. Eyni zamanda bu qərara gəldik ki, ”Şərq qapısı” qəzetini Şuranın xüsusi diplomu ilə təltif edək”, - deyən MŞ sədri diplomu Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərova təqdim edib.



Naxçıvan Muxtar Respublikası-



nın Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov çıxışında bildirib ki, milli mətbuatımızın inkişafına böyük töhfələr vermiş, muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında müstəsna rol oynayan qəzet Naxçıvanın 100 illik tarixinin yazılı salnaməsidir. 1921-ci ilin noyabrında nəşrə başlamış ”Şərq qapısı” böyük inkişaf yolu keçmiş, ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə onun böyük formatda nəşri təmin edilmiş, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüşdür. 100 illik tarixi ərzində burada böyük ədiblər, tənqidçilər, jurnalistlər nəsli yetişmişdir. Qəzetin ötən əsrin 70-ci illərində 50 illik yubileyinin qeyd olunub, ”Şərəf nişanı”na layiq görülüb.

”1990-1993-cü illərdə ulu öndərimizin Azərbaycanın xilası naminə Naxçıvanda həyata keçirdiyi tədbirlər, qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar, eləcə də dahi rəhbərin müsahibələri məhz ”Şərq qapısı” qəzetində çap olunaraq geniş ictimaiyyətə çatdırılmışdır. Bu dövrdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə onun nəşr olunmasını təmin etmişdir”, - deyən B.Əsgərov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun ”Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamına diqqət çəkib. O bildirib ki, sənədə əsasən Tədbirlər Planı təsdiq olunub, muxtar respublikada qəzetin yubileyi ilə bağlı silsilə tədbirlər keçirilib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında ”Şərq qapısı” qəzetini məktəb adlandırıb. O vurğulayıb ki, bu məktəb özündə yalnız jurnalistikamızın ənənələrini birləşdirmir, onun yüz illik tarixi nəşri ədəbiyyat, publisistika, elm məktəbi kimi də təqdim etmək üçün geniş məzmunlu əsaslar yaradır. Akademikin sözlərinə görə, Naxçıvanda elə bir yaradıcı şəxs tapılmaz ki, onun həyatında yubilyar nəşrin bu və ya digər formada rolu olmasın. ”Şərq qapısı”nın inkişafı yalnız bir qəzetin inkişafı deyil, bütövlükdə Azərbaycan milli mətbuatının inkişaf tarixidir. ”Şərq qapısı” özü bir tarixdir, tarixin parçasıdır. O, Naxçıvanın ensiklopediyasını yaratmış mətbuat orqanıdır, salnamədir. Onun səhifələrində jurnalistikanın bütün janrları təmsil olunub. Publisistik dəst-xətt özünü ən mükəmməl surətdə göstərib. Qəzet həm də bir elm mərkəzidir. Azərbaycan, Naxçıvan elmi ilə bağlı fundamental məqalələr, elmi yeniliklər məhz onun səhifələrindən oxuculara çatıb. Bu mənada qəzetin Azərbaycan elminin inkişafında da müstəsna rolu var. ”Şərq qapısı” qəzet içində qəzet olub. Hələ ötən əsrin 80-ci illərində nəşrin müxtəlif mövzularda əlavələri nəşr edilib. Bu, o dövr üçün böyük yenilik sayılırdı”, - deyən İ.Həbibbəyli yubilyar mətbuat orqanının Azərbaycanın müstəqillik əldə edilməsindəki rolundan söz açıb. O bildirib ki, hələ SSRİ dağılmazdan öncə ”Şərq qapısı”nın müstəqil qəzet kimi 11 sayı işıq üzü görüb və bu, son dərəcə cəsarətli addım idi. Akademik nəşrin ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrünü öyrənmək baxımından əvəzsiz mənbə olduğunu vurğulayıb. Qəzetin müstəqillik illərindəki fəaliyyətindən söz açan İ.Həbibbəyli onun hazırda ayrıca mətbəəyə malik olmasını, uğurla fəaliyyət göstərərək ənənələri yaşatmasını Naxçıvanda söz sənətinə verilən dəyərin bariz nümunəsi kimi xarakterizə edib.



Millət vəkili Aqil Abbas çıxış edərək ”Şərq qapısı”nın qəzetçilik məktəbinin ən sanballı nümayəndəsi olaraq Azərbaycan media tarixində çox önəmli yer tutduğunu xüsusi olaraq qeyd edib: ”Bu qəzetin tarixində çox önəmli hadisələr yazılıb. O bir məktəbdir, onu məzunları ölkə mətbuatının ən önəmli simalarıdır. Onlarla bir arada olmaq, bir sırada Azərbaycan mətbuatını təmsil etmək bizə xoşdur. Ulu Öndər Heydər Əliyevin Naxçıvanda fəaliyyətini öyrənmək üçün ”Şərq qapısı” qəzetinin arxivinə müraciət etmək kifayətdir. Deməli bu qəzet həm də bir mənbədir. Mən qəzetin kollektivini təbrik edirəm”.

”İki sahil” qəzetinin Baş redaktoru, YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə çıxış edərək ”Şərq qapısı” qəzetinin mətbuatımızın inkişafındakı rolundan, qəzetin redaksiyasında yetişən çoxsaylı jurnalistlər və bu qəzetlə əməkdaşlıq edərək ölkənin ictimai-siyasi həyatında önəmli xidmətlər göstərən insanların Azərbaycan üçün xidmətlərindən danışıb: ”Hörmətli akademikimiz İsa Həbibbəylinin dediyi kimi, biz ”Şərq qapısı qəzeti”nin məktəbini keçmişik. Yadıma gəlir, hələ 8-ci sinifdə oxuyarkən həm rayon qəzeti, həm də ”Şərq qapısı” qəzeti ilə əməkdaşlıq edirdim. Yazılarımı dərc edirdilər və bu, mənim jurnalist kimi formalaşmağımda çox böyük rol oynadı. Ali Məclisin sədri, hörmətli Vasif Talıbovu da qəzetin inkişafında göstərdiyi dəstəyə görə təbrik edirəm. Məhz onun bu qəzetə qayğısı nəticəsində ”Şərq qapısı” inkişaf edib və respublika əhəmiyyətli bir media orqanına çevrilib. Fürsətdən istifadə edərək, qəzetin baş redaktorunu, onun əməkdaşlarını 100 illik yubiley münasibətilə ürəkdən təbrik edir, uğurlar arzulayıram”.

”Səs Qəzeti”nin Baş redaktoru Bəhruz Quliyev qeyd edib ki, ”Şərq qapısı” Azərbaycanın önəmli tarixini özündə yaşadan bir mətbuat orqanıdır: ”Sovet hakimiyyəti dövründə Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq ideyalarını təbliğində, fikir və tezislərinin Azərbaycan xalqına çatdırılmasında şərəfli missiyanı uğurla yerinə yetirən ”Şərq qapısı” uğurlu yol keçib. Region qəzeti olaraq oxucu dairəsi mərkəzi qəzetlərə nisbətən geniş olmasa da Azərbaycanın ictimai-siyasi həyatında önəmli rol oynayan elm və dövlət, çoxsaylı jurnalist ordusunun yetişməsində misilsiz xidmətlər göstərib. ”Şərq qapısı” qəzetinin ”SƏS” qəzeti ilə əməkdaşlığı da çox məhsuldar olub. Naxçıvan Muxtar Respublikasının həyatında baş verən ən önəmli hadisələrin eyni zamanda ”Səs” qəzetində dərc olunması, Ulu Öndər Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi müddətdə dövlətçiliyimizin bərpası və inkişafı haqda dediyi fikirlərin geniş oxucu kütləsinə çatdırılması həm də iki mətbu orqan arasında əməkdaşlıqdan qaynaqlanırdı. Ona görə də həmin dövr üçün ”Şərq qapısı”nın fəaliyyətini xüsusi olaraq dəyərləndirmək lazımdır. ”Şərq qapısı”nın ən böyük xidmətlərindən biri də gənclərin vətənpərvər ruhda yetişməsinə verdiyi böyük töhfələrdir. ”Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə redaksiyanın bütün kollektivini, ürəyi bu qəzetlə döyünən hər bir oxucunu təbrik edir, müqəddəs fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram”.

Çıxış edənlərdən - MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, ”Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev, həmçinin ”Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu, ”Yeni Azərbaycan” qəzetinin baş redaktor müavini Nəzirə Nurullayeva, ”525-ci qəzet”in redaktoru Seyfəddin Hüseynli, ”Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyev, Yeni Azərbaycan Partiyasının Binəqədi Rayon Təşkilatının sədri Vüsal İsmayılov və başqaları ”Şərq qapısı” qəzetinin müxtəlif dövrlərdəki fəaliyyətindən bəhs edib, onun Azərbaycanda milli mənlik şüurunun formalaşmasındakı roluna toxunaraq nəşrin vətənpərvərlik duyğularının yayılmasına, həyatın müxtəlif istiqamətlərinin təşəkkül tapmasına yönələn fəaliyyətini yüksək qiymətləndirib, təbriklərini çatdırıb, səmimi arzu və diklərini ifadə ediblər. Onlar çıxışlarında ”Şərq qapısı”nı Naxçıvanla bağlı başlıca informasiya mənbəyi kimi dəyərləndirərək yubilyar qəzetin Bakıda və ölkəmizin müxtəlif bölgələrində yayımının təşkil olunmasının əhəmiyyətindən söz açıblar.

***Aysel Məmmədova***

SİYASİ · RAKURS+AKTUAL

# Moskva, yoxsa Brüssel?

*Yaxud, şərtlərin icra edilməsinin vaxtıdır!*




Ermənistanın baş naziri Nikol Paşinyanın bir müddət əvvəl Moskvada, hətta vaxtı müəyyənləşdirilmiş görüşdən yayınmaqla sonradan üzünü Avropa məkanına tutması və Brüssel görüşünə tərəf istiqamət alması əlbəttə ki, Kremli qəzəbləndirdi. Məsələ ondadır ki, dara düşən kimi ilk işinin Rusiya prezidenti Vladimir Putinə telefon zəngi etməkdən ibarət olan erməni baş nazirinin pərdəarxası şəkildə Avropadakı siyasi dairələrə bel bağlaması onun işini daha da qəlizləşdirə bilər. Artıq Ermənistanın işğalçı ambisiyaları baxımından itirilmiş Qarabağ faktoru ilə yanaşı, Zəngəzur dəhlizi amili də ortadadır və görünən də budur ki, hər vəchlə ortada var-gəl edib özünə iynə deşiyi boyda olsa da çıxış yolu axtaran Paşinyan bu məsələdə də aciz qalmaqdadır. Ümumilikdə götürəndə isə Brüssellə Moskvanın fərqi çox böyükdür.

### İrəvan yalnız sözdə Kremlə minnətdarlıq hisslərini çatdırır, əməldə isə rıçaqlarını Qərbdə - Avropa İttifaqının dəhlizlərində, eləcə də ABŞ-da axtarır

Brüssel Moskvadan fərqli olaraq regiondan çox-çox uzaqlardadır, halbuki Qarabağ münaqişəsinin başa çatmasında regionda olan Rusiya reallığı mövcuddur və məhz Rusiya Azərbaycan qarşısında əzilən, məğlub olan Ermənistanı tamamilə xəritədən silinməməsinin qarşısını almağa müvəffəq oldu. İrəvan isə yalnız sözdə Kremlə minnətdarlıq hisslərini çatdırır, əməldə isə rıçaqlarını Qərbdə - Avropa İttifaqının dəhlizlərində, eləcə də ABŞ-da axtarır.

Beləliklə, fakt budur ki, Paşinyan Putinin patronajlığı altındakı görüşü pozdu və dərhal Şarl Mişelin egidası altında görüşün keçirilməsini istədi. Artıq Rusiyanın siyasi dairələri və KİV-ləri sözügedən məsələnin Putinin üzünə əlcək atması kimi qiymətləndirirlər və iddialar var ki, Kreml erməni baş nazirinin bu addımını əsla və qətiyyən bağışlamaq fikrində deyil. Moskvanın siyasi dairələrində deyildiyi kimi - Vladimir Vladimiroviç belə incəlikləri qeydə alır və yadında saxlayır. Misal üçün bu gün Kremldə unudulmayıb ki, Paşinyan vaxtilə Moldovanın prezidenti Dodonu İrəvanda qarşılayarkən hava limanına qədər getdi və şəxsən Baqramyan 37 küçəsinə qədər (İrəvanda dövlət tədbirlərinin keçirildiyi və xarici qonaqların zonaq saxlanıldığı məkan) müşayiət etdi, lakin Putini qarşılamağa getmədi...

### Hər hansı sənədlər imzalanacaq, bu prosesin Moskvada baş tutacağını indidən proqnozlaşdırmaq olar

Təbii ki, Brüsseldə hər hansı sənədin imzalanması ehtimalından söhbət belə gedə bilməz və hətta hər hansı sənədlər imzalanacaq, klbu prosesin Moskvada baş tutacağını indidən proqnozlaşdırmaq olar. İmzalanacaq sənədlərdə isə bilavasitə Azərbaycanın qalibiyyət gerçəkliyi, şərtləri isə danılmaz faktdır.

Yeri gəlmişkən, baş tutmayan Moskva görüşündən əvvəl Rusiyanın XİN başçısı Sergey Lavrov dəqiqliklə vurğulamışdı ki, görüş üçtərəfli formatda keçiriləcək, lakin Brüssel görüşündə format müəyyən olunmamış qalır. Yəni görüşün Aİ-nin rəhbəri Şarl Mişelin iştirakı ilə üçtərəfli, yoxsa İlham Əliyev-Nikol Paşinyan arasında ikitərəfli olacağı dəqiq bildirilmir. Çünki həm format, həm də görüşün keçirilməsi üçün təşəbbüskar olmaq fərqli mənalar daşıyır. Belə ki, onu da etiraf etmək mümkündür ki, istər Ermənistanın Azərbaycana, istərsə də Azərbaycanın Ermənistana inamı yoxdur, kifayət qədər çox pretenziyalar mövcuddur və qarşıda kifayət qədər suallar açıq qalmaqdadır.

### Üçtərəfli formatı dördtərəfli də hesab etmək olar: Ankara faktoru qalmaqdadır

Digər tərəfdən, bir ildir ki, Bakı-Moskva-İrəvan arasında imzalanmış üçtərəfli bəyanat mövcuddur. Mövcud formatı həm də dolayısı ilə dördtərəfli hesab etmək olar. Belə ki, burada Türkiyə faktoru da unudulmamalıdır. Ona görə ki, Ankara keçirilən hər bir görüş haqqında tam şəkildə məlumatlandırılır, eləcə də Türkiyənin ABŞ və Fransadan, həmçinin Aİ-dən fərqi ondadır ki, prosesdə Ankara amili həm də fəaliyyət çərçivəsindədir - Türkiyə Ermənistanla həmsərhəddir, Türkiyənin Ağdamda monitorinq mərkəzindəki fəaliyyəti də mövcuddur.

Brüsseldə, dekabrın 15-nə təyin olunmuş günə isə iki həftədən bir az çox qalır. Buna qədər Moskva daha çevik hərəkətə keçərək yeni və düzəliş edilmiş sənədlərin qəbulunu reallaşdıra, bununla da Brüssel görüşü yalnız formal olaraq keçirilə bilər. Ancaq hər şeyə rəğmən və harada keçiriləcək hansı görüşə baxmayaraq Azərbaycana qəbul olunmuş bəyanatların icrası lazımdır.

### Əgər İrəvan buna getməsə, söz yox ki, bunun alternativ vatiantı da var

Ermənistan tərəfindən ərazi bütövlüyünün tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası, Zəngəzur üzərindən Naxçıvana dəhlizin açılması, Rusiyanın Qarabağda müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentinin nəzarəti altındakı bölgələrdən erməni silahlılarının çıxarılması. Lakin bu şərtlərin hansı ortaqlar tərəfindən başladılması məsələsi mühüm olsa da, əsas deyil. Əsas budur ki, Ermənistan bu şərtlərə əməl etsin. Əgər İrəvan buna getməsə, söz yox ki, bunun alternativ vatiantı da var və noyabrın 16-da bu variantın yalnız çox cüzi hissəsi həyata keçirildi, davamı isə böyük ola bilər. Yəni İrəvan konstruktivlik yolundan imtina edərsə, prosesin uzadılmasına şəraitlər yaradılarsa, artıq regionda yeni eskalasiyaların baş verməyəcəyinə də kimsə qarant ola bilməz. Eləcə də Bakı artıq dəfələrlə bir sıra məsələlərdə kompromislərə gedərək özünün xoşməramlı tərəfini də nümayiş etdirib, ancaq kompromislər də davamlı ola bilməz - artıq şərtlərin icra edilməsinin vaxtıdır!

**Rövşən RƏSULOV**



## "Büdcədə kənd təsərrüfatına xüsusi önəm verilir"

2022 - ci ilin dövlət büdcəsində kənd təsərrüfatı bölməsi üzrə 997,3 milyon manat məbləğində, əvvəlki illə müqayisədə 5,8 faiz çox vəsaitin ayrılması aqrar sektorun inkişafına göstərilən diqqətin ifadəsidir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komirəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, aqrar sahədə aparılan islahat tədbirlərinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərdə yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi nəzərə alınmış, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 456,0 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da əvvəlki illərdən xeyli çoxdur.

"Həmin vəsait fermerlərə kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərən sahələrin hər hektarına görə verilən, əkin subsidiyasına əlavə olaraq verilən məhsul, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması, lizinqə verilən və lizinq yolu ilə satılan texnikalara, suvarma sistemləri dəstinə və damazlıq heyvanlara dövlət büdcəsinin vəsaiti hesabına güzəştlərin tətbiqi, kənd təsərrüfatı sahəsində digər tədbirlərin maliyyələşdirilməsi məqsədilə proqnozlaşdırılıbdır. Əlbəttə bu güzəştlərin edilməsi aqrar sektor üçün yeni imkanlar yaradır və heyvandarlığın, toxumçuluğun inkişafına təkan verəcəkdir.

Dövlət büdcəsi hesabına kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları, kənd təsərrüfatı məqsədilə yetişdirilən və saxlanılan heyvanların sığortası üzrə vəsaitin ayrılması və artırılması da müsbət haldır. Kənd təsərrüfatı sahəsində strateji hədəflərə nail olmaq məqsədilə 15 subproqram və 37 tədbiri özündə birləşdirən 5 proqramın maliyyələşdirilməsi günün tələbi olmaqla bərabər, həm də dövlətin gələcəyə aydın baxışı kimi qiymətləndirilməlidir. Su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi, suvarma sahələrinin genişləndirilməsi, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi və digər meliorasiya tədbirləri ilə bağlı vəsaitlərin artırılması gələcək inkişafa zəmin yaradır. Ümumiyyətlə, kənd təsərrüfatı ilə bağlı vəsaitlərin ayrılması günün reallıqlarını əks etdirir və iqtisadiyyatımızın davamlılığının göstəricisidir", deyə Tahir Rzayev bildirib.

**İ. Hacıyev**

İQTİSADÇI-EKSPERT AÇIQLADI

## "2021-ci ilin yekunları 2022-ci il üçün maliyyə bazası formalaşdırdı"



2022-ci ildə dövlət büdcəsi xərclərinin 30 milyard manata yaxın olması həm büdcə gəlirlərinin artması, eləcə də 2021-ci ilin yekunlarının iqtisadi baxımdan pozitiv olması ilə bağlıdır. Bu sözləri SİA-ya verdiyi açıqlamasında iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov deyib. Onun sözlərinə görə, 2021-ci ildə həm neft, həm də qeyri-neft sektorundan proqnozlaşdırılandan daha çox vəsait dövlət büdcəsinə daxil oldu və bu da imkan verdi ki, 2022-ci ildə dövlət büdcəsinin gəlirlərini daha çox proqnozlaşdırmaq mümkün olsun.

"Əslində, 2021-ci ilin yekunları 2022-ci il üçün xüsusi maliyyə bazası formalaşdırdı. Digər tərəfdən də vəsaitin bir hissəsi qalıq olaraq 2021-ci ildən 2022-ci ilə keçəcək. Təbii ki, xüsusi sosial paket təqdim olunacaq. Həmin sosial paketin sadəcə 1,4 milyard manat ayrıca olaraq xərci var. Bu əslində sosial xərclərdən əlavə bir paketdir və bütövlükdə paket daxil sosial xərclərin dövlət büdcəsindəki payı 46, 4 faiz olacaq. Bu isə Azərbaycanın müstəqillik tarixində ən böyük paydır. Bu da təbii ki, nəticə etibarı ilə büdcənin xərclər hissəsinə təsir göstərdi. Eləcə də təbii ki, digər mühüm məqam, işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesinin davam etməsi, bu istiqamətdə 2,2 milyard manat vəsaitin ayrılması da nəzərə alınmalıdır. Amma bütövlükdə xərclərin çox olmasının səbəbi gəlirlərdə proqnozlaşdırılan artımdır. Yəni, hər bir ölkənin gəliri olmalıdır ki, daha çox xərcləyə bilsin və bu kontekstdən 2021-ci ilin başa çatmaqda olan yekunları növbəti il üçün gəlirlər və xərclər baxımından daha pozitiv, daha gəlir və xərclənmələr proqnozlaşdırmağa imkan verdi", deyə Vüqar Bayramov bildirib.

**İnam**

# Vətənin daşına layiq olmayanlar...



**Yadımdadır, gənclik dövrümüzdə böyük yazıçı, alim, pedaqoq Mir Cəlalın ”Bir gəncin manifesti” əsərini böyük sevgi, məhəbbətlə sevə-sevə oxuyardıq! Ən çox da orada hamının hisslərinə toxunan bir məqam var idi: azərbaycanlı ana daim sevib əzizlədiyi, öz əli ilə toxuduğu xalçanı ehtiyac üzündən bazara çıxararaq satmalı olur. Pullu alıcıya da rast gəlir! Amma onun əcnəbi olduğunu biləndə, Azərbaycan xalısının vətəndən kənara aparılacağını hiss edəndə fikrindən daşınır: ”İtə ataram, yada satmaram!” - deyir.**

O vaxtdan bu ifadə zərb-məsəl kimi vətənpərvərlik tərbiyəsinin bir elementinə çevrilib. Bu gün Azərbaycan müasir, demokratiya yolu ilə irəliləyən Cənubi Qafqazın lider dövləti, bölgədə söz sahibidir! Ancaq vətənini satanlar, adın ”Azərbaycan vətəndaşı” qoyan vətənin daşına layiq olmayan cinayətkarlar sosial şəbəkələrdə çıxışlar edərək: ”Vətən mənə nə edib” sualı ilə ölkəsinin pis gününə sevinir, uğruna ürəyi partlayır. Sonda da deyir ki, ”mən demokrat carçısıyam”, ”hüquq müdafiəçisiyəm”, ”beynəlxalq təşkilatların nümayəndəsiyəm” daha nə bilim nələr... nələr... Görün iş nə yerdədir ki, Azərbaycan xalqının hüquqlarını Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Orduxan Teymurxanlı, Vidadi İsgəndərli, Sevinc Osmanqızı, Leyla Yunus kimi erməni əsillilərlə iş birliyi quran satqınlar anlamırlar ki, Azərbaycanın əleyhinə iş aparmaqla Azərbaycan xalqının məhəbbətini yox, yalnız nifrətini qazanmaq mümkündür!

Bədbəxtçiliyin ən yüksək piki isə ondadır ki, bu günlərdə 30 illik həsrətə 44 gün ərzində Azərbaycanın Liderinin ”dəmir yumruq” siyasəti ilə qalib gəlməsinin bir illiyinin qeyd olunduğu bir zamanda Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alınmasını vətənin daşına layiq olmayan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Orduxan Temurxanlı, Vidadi İsgəndərli, Sevinc Osmanqızı və bu kimi satqınlar aşırı radikal olduqları bir daha göstərməkdədirlər. Məsələn, dünənə qədər AXCP sədri Əli Kərimlinin hansısa tulası, bu gün də belə ”suçok”lar var, o cümlədən ”Milli Şura”nın koordinasiya mərkəzinin keçmiş rəhbəri Eldəniz Quliyevi ”ziyalı” hesab etdiyini və bununla fəxr duyduğunu yazırdılarsa, bu gün bu adamı tryapka sayırlar. O vaxt ona görə onu ”ziyalı” sayırdılar, separatçı qurumda çalışan vətən xaini Əlikram Hümbətovun dəstəkçisi idi!!! ”Talış Muğan Respublikası” adlı bir qondarma ”respublika” elan edilərkən, onun ”himni” səsləndirilərkən, həmin bu ”ziyalı” adlandırılan Eldəniz ayağa qalxıb!!! İndi Əli Kərimlinin tulaları bu ”adamı” tryapka, hətta erməninin ayaqqabısını silməyə yaramayan tryapka sayırlar. Mən bütün bunları elə-belə yazmıram. Yazıram ona görə ki, bunların hər hansı bir ipiqırıq partiya mənsubları bu gün ”Azərbaycan vətəndaşlığına” layiq olmadıqları halda vətən, xalq ”yanğısından”, ”vətəndaşlıqdan” danışması, sosial şəbəkələrdən Azərbaycanın uğurlarına kölgə salmaları adamda ikrah doğurur.

## Erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir

Bu, aksiomadır: erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. Və bu gün Vətən daşına dönük çıxanlar Azərbaycanın düşmənidir. Çünki Vətən bir millətin üzərində yaşadığı, torpağı Vətən edən isə millətin onda yaşadığı, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirən yerdir. Çünki Vətən anadır. Və bu gün ”Milli Şura” nın satqın kadrosu olan AXCP sədri Əli Kərimli üçün satıb satılmaq adi hal alıb. Bu günlərdə Ə.Kərimli ”Sevinc TV”-də çıxış edərək bildirir ki, ”İkinci Vətən savaşı başlayarkən biz birlik nümayiş etdirdik”,-deyə çıxış edən bu yalançı, satqın, mənəviyyatsız Əli Kərimli hansı birlikdən danışır? Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı başlanan əks-hücum əməliyyatları zamanı siyasi partiyalar birgə bəyanat qəbul edərək ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı siyasəti dəstəklədiklərini bildirərkən, bu həmrəylikdən kənarda qalan Əli Kərimli və onun ətrafında olan bu gün yenə də sosial şəbəkələrdə yurd alaraq dövlətə, hakimiyyətə qarşı yalan, böhtan deməklə, əldə olunmuş qələbəni kiçiltməyə, ictimai rəydə çaşqınlıq yaratmağa çalışdılar.

Yeri gəlmişkən, ermənipərəst Sevinc Osmanqızının internet televiziyasına açıqlamasında Əli Kərimli iddia edib ki, guya ”Milli Şura” və AXCP Vətən müharibəsi dövründə ”həmrəylik” nümayiş etdirib. Görəsən, bu həmrəyliyi Əli Kərimli və onun ətrafında olan erməni lobbisinin ”təbliğatçıları” bu yolla haraya qədər? Ancaq xalq hər şeyi yaxşı bilir və görürü ki, müharibənin əvvəlində Azərbaycanın qələbəsinə inanmayan, xidmət etdiyi ermənipərəst dairələrin sifarişi ilə davranan Əli Kərimlinin 10 noyabr zəfərindən sonra bütün arzuları puç oldu və bundan sonra da uğursuz cəhdləri fiaskoya məhkumdur. Və beləl말 unudurlar ki, dövlətə, xalqa qarşı edilən xəyanətlər heç zaman bağışlanmır. Bu ünsürlər unutmamalıdır ki, Azərbaycan xalqının milli birliyi, Azərbaycan Ordusunun rəşadəti və Ali Baş Komandanımızın qətiyyəti nəticəsində azad edilən bu torpaqlar bir vaxtlar məhz onların hakimiyyət oyunlarının qurbanına çevrilmişdi. Və Vətən daşına dönük çıxan cinayətkarlar mütləq cavab verməli olacaqlar - Azərbaycan xalqı və qanunları qarşısında!

**RƏFİQƏ**

# “Qəlbi-könlü tox” ermənınin məhkəməyə çəkilməsi

**”...Deyəsən, Nikol onu gözləyən təhdidlərdən yayınmaq üçün indi də Serjik Sarkisyanı qabağa vermək istəyir? Robert Koçaryana gücü çatmadı deyə, indi də, Serjik Sarkisyana ”ilişmək” istəyir? Əslində, Silva Ambarstumyanın özünü mühakimə etmək lazımdır. Sabiq ikinci prezident Robert Koçaryana istəmədiyi halda üç milyon ABŞ dolları təklif etdiyinə görə... Onun özünün bu qədər sərmayəyə hansı yolla nail ola bildiyi araşdırılmalıdır. Şəxsən mən, Eduard Şarmazanov Serjik Sarkisyanla çalışdığım ərəfədə onun heç kimdən rüşvət aldına şahidlik etməmişəm. Ona görə, mən Serjikin yerinə and içərəm ki, Silva Ambarstumyan gözünün içinə qədər yalan danışır...”**





Bəli, özüdür ki var, bu Respublika Partiyasının mətbuat katibi, həmişə Serjikə sadiq olub və bundan sonra da sadiq olacağına söz verən Eduard Şarmazanovun dəsti-xəttidir. Sabiq olsa da, amma yenə də nə vaxtsa hakimiyyətə qayıdacaqlarına ümidini itirməyən Şarmazanova görə, Serjikə qarşı irəli sürülən bu ”acınacaqlı ittihamlarla” Nikol Paşinyan hakimiyyəti ictimaiyyətin diqqətini Zəngəzur ətrafında baş verən proseslərdən yayındırmaq istəyir.

Sabiq mətbuat katibinin fikrincə, o gün Nikolun erməni parlamentində ”...Azərbaycan qoşunlarının ”işğalına” cavab olaraq kimsə atəş açmamaq əmri verirsə, bu, satqındır...” -deyə səsləndirdiyi fikirlər də yalan-palandan başqa bir şey deyil.



Qeyd edim ki, Şarmazanov burada Serjikin həbsdən qorxmadığını xalqının nəzərinə çadırmaqla, ermənilərin üç il əvvəl Sarkisyanı hakimiyyətdən qovub yerinə Paşinyanı gətirməklə hansı yanlışlığa yol verdiklərini bir daha onlara xatırladıb. Deyim ki, bunu bildirərkən hətta bir az kövrəlib də...

Şarmazanov, əgər Serjikin həbs edilməsi, doğrudan da, Zəngəzur və Dağlıq Qarabağın geri qaytarılmasına kömək edəcəksə, bu halda özünün də sabiq rəhbəri Sarkisyanla birgə həbsə getməyə hazır olduğunu bildirib. Təbii ki, bütün bunlar ”erməni vətənpərvərliyi”ndən irəli gəlir. Hə, indi nə olsun ki, kimsə, nə vaxtsa ermənilərin bu hisslərdən uzaq olduqlarını deyib...”fakt” göz önündədir.

...Deyir əsil sadiq dost, çətin gündə tanınar. Bu necə ola bilər, Serjiki həbs təhlükəsi gözləyə və onun partiyadaşı olan Armen Aşotyan buna biganə qala...

Təbii ki, Serjikin müdafiəsinə qalxan Aşotyan da Serjiki ermənilərə ”qəlbi-könlü tox”, ”təmizin biri” kimi təqdim etməyə çalışır. Deyir ki, Nikolun hazırlatdırdığı bu axmaq şou (...erməni də cəsarətə bir bax ey...) ictimaiyyətin diqqətini daha bir xain sövdələşmədən yayındırmağa hesablanıb. Aşotyana görə, Nikoldan fərqli olraq, Serjik ”artsax”ın heç vaxt Azərbaycanın bir hissəsi olduğunu deməyib.

...Və bu gün Ermənistanın cənubunu qara buludlar bürüyəndə biz Zəngəzurun həmişə ”erməni torpağı” olaraq qalacağına ümidsiz bir şəkildə ümid edirik...

...Yadımdaykən, yuxarıda Aşotyanın ”cəsarətindən” danışarkən onun anasının Bakılı olduğunu deməyi unutmuşdum. İndi gərək ki, Sizə də erməni də bu ”cəsarətin” haradan qaynaqlandığı aydın olmalıdır.

***Ağasəf Babayev***

# Oyunbazlığı Ermənistana baha başa gələr



Təhlil

Cənubi Qafqazda cərəyan edən proseslərin fonunda Ermənistan tərəfinin oyunbazlığı təbii ki, diqqətdən yayınan deyil və bu, eyni zamanda, Rusiyanın diqqət mərkəzindədir, hansı ki, reaksiyasız ötüşməyəcəyi indidən bəllidir. Çünki bu oyunbazlığı Ermənistan həm də Rusiyaya qarşı edir və ermənilər, işləri düşən kimi yalvardıqları böyük rus qardaşlarını indi oyundankənar vəziyyətə salmaq niyyətindədirlər, hansı ki, bunu Rusiya tərəfi çox yaxşı başa düşür. Əbəs yerə deyil ki, Vladimir Putin erməni baş nazirinin ”geopolitik kələkbazlıq” etməsinin onlar üçün acı nəticələr vəd etməsi barədə xəbərdarlıq da edib və sonuncu dəfə Paşinyanla telefon danışıqlarının həmişəkindən fərqli olaraq məhz Kreml rəhbərinin təşəbbüsü ilə baş tutması da təsadüfi deyil.

Hadisələrin gedişinə diqqət etsək görərik ki, hər dəfə hərbi məğlubiyyətin ardınca erməni baş nazir Nikol Paşinyan dərhal və birinci növbədə Rusiyaya, prezident Vladimir Putinə müraciət edərək, kömək üçün yalvarır. Hər dəfəki hərbi məğlubiyyətin ardınca Nikol Rusiya tərəfinə yalvarır ki, Azərbaycanı atəşkəsə razı salmaq üçün ruslar vasitəçilik etsinlər. Məsələ burasındadır ki, Paşinyanın Azərbaycan Prezidenrti ilə görüşü barədə Sergey Lavrovun belə anonsunu verdiyi Moskva görüşünə erməni baş nazir əhəmiyyət vermədi və indi Brüsseldə görüşməyə razılıq verir, hansı ki, bu, rusların çətin ki, ürəyincə olsun. Əksinə, erməni baş nazirin Azərbaycan Prezidenti ilə görüşünün təşkili barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişeldən xahiş etməsini Rusiyanın həzm edəcəyi inandırıcı görünmür. Rusiya tərəfi bunu Ermənistana bağışlayan deyil və çox güman ki, erməni baş nazirinin bu seçiminin, bu qərarının, əslində isə, oyununa reaksiyasını yaxın zamanda hamı müşahidə edəcək.

Həqiqətən də, çox təəccüblü görünür ki, niyə Paşinyan Rusiyada təşkil olunacağı planlaşdırılan görüşdən yayındıqdan sonra Brüsseldə görüşməyə razılıq verib? Sözsüz ki, bu hal heç də təsadüfi deyil və burada müəyyən qaranlıq məqamların olması dərhal bəlli olur. Bəlli olur ki, Ermənistan tərəfi bu dövlətin ənənəsinə uyğun olaraq ikibaşlı oyun oynayır, özü də bu dəfə onu hər vəziyyətdən xilas edən böyük qardaşına qarşı oynayır. Sanki bu oyunun ağır nəticələrini dərk etmirlər ermənilər. Bu toplumun Qərbdəki himayədarlarının sifarişi ilə oyunlar oynaması, eləcə də Rusiyaya qarşı xəyanəti birinci dəfə deyil, amma rusları bölgədən sıxışdırmaq niyyətləri ermənilərin böyük qardaşları üçün qəbuledilməzdir və necə deyərlər, ”bu həna o hənadan deyil”.

Yüksək səviyyəli görüşün harada, necə keçirilməsinin Azərbaycan üçün qəti şəkildə fərqi yoxdur və konstruktiv danışıqlardan yayınan tərəf kimi görünməyin əleyhinə olan ölkəmiz, görüş təklifinə savaşın qalibi statusunda razılıq verib, hansı ki, bunun rəsmi Bakı ilə Kreml arasındaki münasibətlərə xələl gətirməyəcəyi gün kimi aydındır. Ancaq eyni sözləri Ermənistan tərəfi barədə qətiyyən söyləmək olmaz və indi təkcə Kreml deyil, hər kəs yaxşı bilir ki, görüşün Brüsseldə keçirilməsinin təşəbbüskarı Ermənistan tərəfi, onun baş naziri Nikol Paşinyandır, hansı ki, bu xahişi məhz o Avropa İttifaqı səlahiyyətlilərindən xahiş edib. Əlbəttə, bu da ondan xəbər verir ki, Ermənistan hər dəfə çətin duruma düşərkən yalvardığı Rusiyanı deyil, Avropanı deçdi və hətta onları prosesə cəlb etməklə, rusları bölgədən uzaqlaşdırmağa da cəhd etdi. Təbii ki, başda elə baş nazir Paşinyan olmaqla, ermənilər buna görə Rusiyaya cavab verməli olacaqlar və Ermənistan tərəfinin Qərblə Rusiya arasındakı təhlükəli, ikibaşlı oyunlarının qurbanına çevriləcəyi gün uzaqda deyil. Cənubi Qafqazda baş verən prosesləri belə Rusiyanın nəzarətindən çıxarmaq istəyənlərə rusların reaksiyası özünü çox gözlədən deyil.

Yəqin ki, Paşinyan regiondakı sülhməramlı qüvvələrin də ”torbasını tikmək”, onları uzaqlaşdırmaq, yerinə də Fransa, yaxud ABŞ hərbi kontingentini dəvət etmək arzundadır və Rusiya siyasi dairələri, eləcə də bu ölkənin prezidenti İrəvanın belə hiyləgər siyasətindən artıq çoxdan xəbərdardır. Nəzərə çatdırmaq yerinə düşərdi ki, bir çox rus politoloqları Ermənistanın cəzalandırılmasının labüd olduğunu artıq çəkinmədən bəyan edirlər. Məsələn, hərbi ekspert İqor Korotçenko açıq şəkildə ifadə edir ki, hazırda rəsmi İrəvanın siyasəti geopolitik kələkbazlıq üzərində qurulub və Rusiya artıq Azərbaycanın dəstəklənməsi istiqamətində bütün mümkün addımları atmalıdır. Bir sözlə, Rusiya siyasi dairələri Cənubi Qafqazda Azərbaycan kimi etibarlı tərəfdaşın Ermənistan kimi etibarsız müttəfiqdən daha sərfəli olması qənaətindədirlər. Onlar əmindirlər ki, Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinə qarşı çıxmağın ermənilər üçün nə qədər təhlükəli olduğunu hələ də anlaya bilməyib.

Doğrudur, postmünaqişə dövrü üçün vacib olan münasibətlərin normallaşdırılması baxımından danışıqlar əhəmiyyətlidir. Brüsseldə görüşün təşkil olunması sonrakı dövrdə belə heç bir vasitəçi olmadan hər iki ölkənin müzakirələr aparması imkanı verir və bu baxımdan hər iki ölkənin maraqlarına cavab verir. Ən azından mövcud vəziyyətdə tərəflərin razılaşmalar əldə etməsinin vacibliyi danılmazdır və bu istiqamətdə atılan addımlar müsbət qiymətləndirilməlidir. Amma Ermənistanın bundan əvvəl Rusiya paytaxtında görüşdəndən boyun qaçırıb indi Brüsseldə danışıqlara razılıq verməsi nəticə etibarı ilə ermənilər üçün heç də yaxşı sonluq vəd etmir. Belə bir təəssürat yaranır ki, Ermənistan danışıqlarda belə Rusiyanın iştirakından narazıdır və bu da Kremlin ürəyincə ola bilməz. Təbii ki, Brüsseldə görüş barədə danışıqlar təsdiq edir ki, Avropa İttifaqı sərhədlərin delimitasiya və demarkasiya prosesində vasitçi olmaqda maraqlıdır və həm də Aİ-nin bölgədəki güc balansında öz yerini tutmaq maraqlarını da ortaya qoyur.

Maraqlıdır, Rusiya Avropa İttifaqının bölgədə vasitəçi olmaq istəyinə, eləcə də Ermənistan tərəfinin ikibaşlı oyunlarına müşahidəçi mövqe sərgiləyəcək, yaxud kənardan tamaşa edəcəkmi? Noyabr ayının ilk ongünlüyündə iki ölkə rəhbərinin Moskvada görüşü barədə proqnozlar verən Rusiya tərəfi Brüsseldə görüşün keçirilməsi ilə barışacaqmı? Bəzi politoloqlar iddia edirlər ki, 15 dekabr tarixində Brüsseldə nəzərdə tutulan görüşdən əvvəl bu görüşün məhz Moskvada keçirilməsi üçün Rusiya əlindən gələni əsirgəməyəcək və elə Avropa İttifaqının özünün ofsaytda qalmasına çalışacaq. Çünki, Rusiya bölgədəki yerini, vasitəçilik missiyası adı altında öz mövqeyini kiminləsə bölüşmək niiyyətində ola bilməz və bununla barışacağı belə inandırıcı görünmür. Rəsmi Moskva hər zaman çalışıb ki, azərbaycanlılarla ermənilər arasında əlaqə birmənalı şəkildə yalnız Rusiyanın vasitəçiliyi ilə reallaşdırılsın.

Bir daha qeyd edək ki, Şarl Mişelin irəli sürdüyü təşəbbüslər Azərbaycan tərəfindən dəstəklənir və burada məhz danışıqlardan, sülhün bərqərar olunmasında başqa ölkəmizin hansısa bir niyyəti yoxdur, bunu da hər kəs yaxşı bilir. Azərbaycan sərhədlərinin delimitasiyası, demarkasiyası, ərazi bütövlüyünün tanınması istiqamətində bütün təmaslara hazırdır və ölkəmiz üçün bunun kimin vasitəçiliyi ilə reallaşmasının fərqi yoxdur. Güclü və qalib tərəf olan Azərbaycan həmişə olduğu kimi, haqqın, ədalətin, sülhün, əmin-amanlığın, əməkdaşlığın tərəfindədir. Ermənistan isə bundan fərqli olaraq, tamamilə başqa çirkin niyyətlər güdür, özü də hər zaman olduğu kimi. Bütün bunların da təbii ki, Ermənistanın haqsız, özü də məğlub tərəf olmasının fonunda baş verməsi anlaşılandır. Çünki haqqın, ədalətin, qanunun təntənəsi ermənilər üçün sərf edən deyil və bu halda onların bu zamana qədərki bütün fəaliyyətləri puça çıxmış olur. Elə bu baxımdan da ermənilər uzun zamandır oynadıqları çirkin oyunları yenə də davam etdirmək, bulanıq suda balıq tutmaq niyyətindədirlər. Lakin bu dəfə çirkin niyyətlərinin baş tutacağına heç özləri belə inana bilməz. Qarşlarında hiyləgərliklərini yaxşıca tanıyan, bilən Rusiya var və bu dəfə zərbənin məhz özlərinə dəyəcəyi qorxusundan buna rəvac verəcəkləri heç inandırıcı deyil.

Təbii ki, ermənilər üçün həlledici söz, illər, onilliklər boyu olduğu kimi, onsuz da yenə də Rusiyaya məxsusdur. Brüsseldə görüşüb bunula Avropa İttifaqını bölgəyə dəvət etsələr də, etməsələr də ermənilərin ipi rusların əlində olub və bundan sonra da belə olacaq. Müqəddəratı hər zaman Rusiyadan asılı olan bir toplumun bundan başqa heç bir çarəsi qalmır. Əslində, Avropa İttifaqının bölgədə iştirakı bizim üçün zərrə qədər fərq eləmir və bir tərəfdən də Ruiyanın proseslərdə monopolist olmasının qarşısını alır. Amma, heç də ermənilərə bu sərfəli sayılmır. Avropa İttifaqının proseslərdə iştirakından sonra heç də ermənilər rusların əhatəsindəki kimi ərköyünlük nümayiş etdirə bilməzlər. Ən başlıcası da ona görə ki, Rusiya artıq bu toplumun oyunbazlıqları fonunda iç üzlərini yaxşı tanıyır və təhlükəli oyunlarından ehtiyatlanır. Bu səbəbdən də Rusiya sözsüz ki, qabaqlayıcı tədbirlərini də alır və bu böyüklükdə dövlət üçün Ermənistan hədsiz dərəcədə kiçik bir ölkədir və bu kiçik ölkənin məhvinin reallaşdırılması Moskva üçün ən asan işdir. Bir sözlə, indi Ermənistanın bilavasitə taleyi atacağı addımlardan birbaşa asılıdır və Moskvada görüşməkdən boyun qaçırdıqdan sonra Brüsseldə görüşə Nikol Paşinyanın razılaşmasından sonra bu həssaslıq daha da artıb. Daha dəqiq desək, bundan sonra oyunbazlığı Ermənistana baha başa gələ bilər və bu da həmin ölkənin sonuna gətirib çıxarar.

***İnam Hacıyev***

# Yuri Tavrovski: ”Strateji baxımdan Çin Zəngəzur dəhlizinə lazımi diqqət yetirəcək”

**Rusiya-Çin Dostluq, Sülh və Əməkdaşlıq Komitəsinin Ekspert Şurasının sədri, rusiyalı şərqşünas və çinşünas Yuri Tavrovski ”Caliber” analitik mərkəzinə müsahibəsində dünyaya və regionda baş verən siyasi, iqtisadi proseslərlə yanaşı, nəqliyyat dəhlizlərinin, xüsusən də Zəngəzur dəhlizinin perspektivlərinə də toxunub. Müsahibəni təqdim edirik.**




...baycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

***- ABŞ Rusiya, Çin, Türkiyə və Azərbaycanı qondarma "Demokratiya Sammiti"nə dəvət etməyib. Yalnız Vaşinqtonun müttəfiqləri və bəzi kiçik ölkələr, o cümlədən, Ermənistan dəvət aldı. Belə bir sammitin arxasında hansı məqsəd dayanır?***

- Qəribədir ki, onları dəvət etməyiblər. Bu tədbirin məqsədi avtokratiyanı demokratiyaya qarşı qoymaqdır. Biz sizinlə avtokratlar bölməsinə düşdük, qalanların hamısı alovlu ”demokratlar”.

İlk dəfədir ki, belə bir tədbir keçirilir. Amerikalılar Komintern kimi bir orqan yaratmağa çalışırlar- 1919-cu ildə bolşeviklər tərəfindən yaradılmış orqan. Və bu, beynəlxalq anti-avtokratik internasional olacaq. İlk növbədə, bütün bunlar Çin və Rusiyaya qarşı yönəlib. Mən hətta qeyd edərdim: ilk növbədə Çinə qarşı, çünki ABŞ üçün ideoloji təhlükə odur. Prezident Trampın dövründə ticarət müharibəsi gedirdisə və ixracın idxalı üstələməsi, texnologiyanın oğurlanması ilə bağlı iddialar irəli sürülürdüsə, Bayden dövründə artıq ideologiya ön plana çıxırdı. Niyə? Çünki Bayden Demokratik Partiyanı təmsil edir və onlar ənənəvi olaraq ideologiyaya diqqət yetirirlər. Demokratlar Partiyasında neokonservatorlar çox güclüdür. Bunlar trotskiist ideologiyanı mormonlarla, protestantlarla, yəhudilərlə qarışdıraraq bu kvaziamerika dinini yaradan keçmiş trotskistlərdir: ”Amerika dağda məbəddir”, ”Amerika vahid olmalıdır”, ”Bütün dünyaya əmr edən bir dövlət olmalıdır”, ”Bütün rəqiblər aradan qaldırılmalıdır”. Məhz buna görə Sovet İttifaqı və Amerika ”demokratik” dəyərlərinə rəqib olan kommunist ideologiyası ortadan qaldırıldı. İndi növbə Çindədir. Nüfuzlu Amerika jurnallarında dərc olunan məqalələrdə bu neo-mühafizəkar mütəfəkkirlər ideologiyanın ticarətdən, elmi sahədən daha önəmli olduğunu yazır.

Bunun kimə qarşı yönəldiyini hamı düzgün başa düşdü. Rusiya cavab vermir. Çinlilər isə reaksiya verirlər. Onlar öz əks-forumuna- İnsan Dəyərləri Forumuna başlayıblar, forum bir neçə gün ərzində 3 mərhələdə: 4-5, 9-10 və 14-15 dekabrda keçiriləcək.

Çinlilər məni forumun sessiyalarının birində çıxış etməyə dəvət edəndə Si Cinpinin də iştirak edəcəyinə eyham vurdular. Yəni təsəvvür edirsinizmi, çinlilər bu foruma nə qədər diqqət yetirirlər. Onların Çin xüsusiyyətlərinə malik sosializm ideologiyası var. Və onlar bunu təkcə öz ərazilərində deyil, Çindən kənarda da inkişaf etdirmək niyyətindədirlər. Yəni bütün bunlar ciddidir.

***- Bu günlərdə Çin Xalq Respublikasının Sədri Si Cinpinlə ABŞ Prezidenti Co Bayden arasında videokonfrans keçirilib. Niyə Çinə davamlı təzyiqlər fonunda bu mümkün oldu? Və ikitərəfli münasibətlərdə bundan sonra nə gözləmək olar?***

-Bu, qaçılmaz və zəruri idi. Çünki Çinlə ABŞ arasında rəqabət çox təhlükəli həddə, təhlükəli xəttə çatıb. Hər kəs hətta müharibənin təsadüfən başlaya biləcəyindən danışmağa başladı.




Təbii ki, söhbət həm Amerika təyyarədaşıyan gəmilərinin, həm də Çin təyyarədaşıyanlarının və sualtı qayıqlarının olduğu Tayvan boğazından gedir. Hamımız bilirik ki, orada gərginlik çox yüksəkdir. Çinlilər ardıcıl olaraq xəbərdarlıq edirlər ki, qırmızı xətlər keçərsə, kəskin tədbirlər görməyə məcbur olacaqlar.

Belə bir məqsədsiz toqquşmanın qarşısını almaq üçün iki ölkə liderlərinin videokonfransı lazım idi, məncə, onun əsas mənası budur. Təsadüfi deyil ki, prezident Bayden heç kimin gözləmədiyi videokonfransda ABŞ-ın Obama dövründə formalaşdırdığı ənənəvi mövqeyini təsdiqlədi- ABŞ ”vahid Çin” prinsipini tanıyır. Yəni, müstəqil Tayvan ola bilməz. Vaşinqton son 30 ildə imzalanmış 3 sənədi tanıyır. Yəni bunlar Amerikadan Çinə çox ciddi güzəştlərdir və bu, istəmədən müharibənin başlaması təhlükəsini azaldır.

Əsas odur ki, ABŞ və Çin ticarət tərəfdaşıdır. Onların ticarəti nəhəngdir və Trampın başlatdığı bütün ticarət müharibələrinə baxmayaraq, böyüməyə davam edir. Həm də bəzi prinsiplər, sağlam təməllər olmalıdır. Hesab edirəm ki, bu, çox vacib və vaxtında keçirilən videokonfrans idi. Amma bu, heç də gərginliyin



azalması, fundamental risklərin, o cümlədən hərbi xarakterli risklərin azalması üçün yaxşı heç nə vəd etmir. ABŞ-da keçirilən sammit də bu fikri təsdiqləyir, çünki soyuq müharibə mühiti yaradılır. Əslində, bütün dünya Çin və Rusiyaya qarşı Soyuq Müharibədə iştiraka dəvət olunur. Üstəlik, xatırlamaq yerinə düşər ki, bu, ABŞ-ın Çinlə döyüşmək üçün başqa ölkələri ”işə götürməsi” ilk dəfə deyil. Koreya müharibəsi 1950-1953. Onda 15 ölkə Şimali Koreyada Çin qoşunları ilə döyüşməkdə ABŞ-a kömək etmək üçün öz qoşunlarını göndərdi. Vyetnam müharibəsi isə Çini ehtiva edən bir müharibə idi. Oraya 8 ölkə öz qoşunlarını göndərdi.

Amerikalılar ideoloji strukturdan başlayacaq, sonra isə hərbi struktura keçəcəklər, bunu Hindistan, Avstraliya və Yaponiyanın iştirakı ilə yeni QUAD qruplarının yaradılması sübut edir. Soyuq müharibəyə, onun qaynar mərhələsinə hazırlıq gedir, hərbi hazırlıq gedir, eləcə də ideoloji, ticarət və s.

***- Noyabrın 11-də Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin partiyanın yaradılmasının 100 illiyinə həsr olunmuş 6-cı plenumu başa çatıb. Belə məlumatlar var idi ki, ÇKP-nin qətnaməsində "Bir kəmər, bir yol" təşəbbüsündən bəhs edilmir. Siz Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin bütün plenumlarını izləyirsiniz. Doğrudanmı qətnamədə bununla bağlı məlumat yer almayıb?***

- Plenum oldu, tarixi məsələlərlə bağlı çox mühüm qərar qəbul edildi. Amma onun əsas mənası geri çevrilməsi deyil. O, irəli baxır. Əsas məsələ ondan ibarətdir ki, Si Cinpinin hakimiyyətinin 9 ili ərzində çox böyük uğurlar əldə olunub və ona öz siyasətini həyata keçirmək üçün qeyri-məhdud vaxt vermək lazımdır. Gələn il partiyanın 20-ci qurultayında onun 10 ildən sonra da hakimiyyətdə olacağı aydındır.

Qətnaməyə gəlincə, bu, böyük mətndir. Çin üzrə mütəxəssis olmayan jurnalist həmkarlarımızın qətnaməni oxumağa vaxtı və gücü çatmadı. Və burada İpək Yolu ilə bağlı bütöv bir bölmə var. Bu, Si Cinpinin 2013-cü ildə ortaya qoyduğu münasibətdir. Buna görə də rejimin yaratdığı və saxladığı ”balinalardan” birinin hardasa yoxa çıxması belə ağlasığmazdır. İpək Yolu Təşəbbüsü davam edəcək. Bu, artan iqtisadi blokada, Çin mallarının çatdırılması üçün dəniz yollarında güclənən təhdidlər fonunda daha vacibdir. Ona görə də bütün infrastruktur dəhlizləri çox vacibdir. Məhz, infrastruktur İpək Yolu İqtisadi Zonası və 21-ci Əsrin Dəniz İpək Yolu ilə bütün bu təşəbbüsün əsasını təşkil edir. Beləliklə, hər şey qaydasındadır. Eyni sürətlə irəliləyirik. Sadəcə, bu sürətin artacağını bilmirəm, çünki indi Çində maliyyə nizamı qurulur, pul artıq ətrafa səpələnmir. Amma biz irəli gedəcəyik.

***- "Bir kəmər, bir yol" təşəbbüsü kontekstində Çin Cənubi Qafqaz regionu ilə gələcək əməkdaşlığa necə meyillidir?***

- Çinlilər müxtəlif istiqamətlərə gedirlər. Bu təşəbbüs çoxdan Avrasiyadan kənara çıxıb. Hesab edirəm ki, Cənubi Asiyaya xüsusi diqqət yetirirlər. Amma onlar üçün prioritet təbii ki, Avropadır. Gəlin ədədlər prizmasından baxaq. Çinin Avropa ilə ticarəti 600 milyard dollardır. Cənubi Asiya daha kiçikdir. Bu iqtisadi dəhliz Amerikanın Əfqanıstandan çıxarılmasından sonra mühüm əhəmiyyət kəsb edir. Bu, geostrateji və geoiqtisadi mənzərəni dəyişir. Bunun prioritet olacağını düşünmürəm. Diqqət və ayrılan vəsait də artacaq. Bu bölgə üzrə mütəxəssis olmasam da, mənim proqnozum budur.

***- Sizcə, Zəngəzur layihəsi gələcəkdə Çini maraqlandıra bilərmi?***

- Düşünürəm ki, ilk növbədə çinlilər hər şeyi hesablayacaq. Strateji cəhətdən Zəngəzur dəhlizinə lazımi diqqət yetirəcəklər. Düşünürəm ki, bütün bunlardan sonra onların əsas prioriteti Çin-Qazaxıstan,-Rusiya-Belarus-Polşadan keçən, Çin mallarının aslan payının keçdiyi mövcud xəttdir və bu axın getdikcə artır. Amma bu yolda darboğaz var - Polşa. O, ABŞ-ın sadiq müttəfiqi kimi malların hərəkətini ya ləngidə, ya da dayandıra bilər. Necə ki, dəniz ipək yolunda Malakka boğazı var, burada iki və ya üç gəmi keçidi bağlamaq üçün kifayətdir. Eynilə, bizim Avropa marşrutumuzda Polşa kimi boğulma nöqtəmiz var.

Zəngəzur dəhlizində - bunu mütəxəssislər təhlil etməlidir, mən onlardan deyiləm,- belə strateji risk nöqtələri varmı? Çinlilər də bu cəhətdən hesablayırlar. Onlar təkcə pul saymırlar. Onlar baxırlar ki, hansısa ölkənin texniki çətinliklər yaratması ehtimalı varmı? Orada plato çökə bilərmi?. Bu, təkcə Çində deyil, həm də iştirak edən ölkələrdə böyük maraq yaradacaq çox maraqlı, yeni layihədir. Gözləyək.

***Elçin Bayramlı***

# Serial üçün saçlarını kəsdi



Məşhur aktrisa Derya Şensoydan ayrıldıqdan sonra ürəyi boş qalan Sarp Levendoğlu 24 yaşlı aktrisa Naz Çağla Irmakla eşq yaşayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, "Dəmir qadın" filmində Neslican Tayın həyatını canlandıracağı üçün saçlarını qırxdırmaqla məşhur olan İrmakdan sevgi paylaşımı gəlib. Onun uzun saçlarını sarıya boyaması diqqət çəkib.

*Ayşən Vəli*

# "Mançester Yunayted" bu baş məşqçiyə 9 milyon avro təzminat ödəyəcək



İngiltərənin "Mançester Yunayted" futbol klubunun istefaya göndərdiyi baş məşqçi Ole-Qunnar Sulşerin alacağı təzminatın məbləği açıqlanıb. İngiltərənin nüfuzlu "The Times" nəşrinin yazdığına görə, "qırmızı şeytanlar" norveçli mütəxəssisin müqaviləsinə vaxtından əvvəl xitam verdiyi üçün ona 9 milyon avro təzminat ödəyəcək.

Qeyd edək ki, Sulşer 2018-ci ildən "Mançester Yunayted"i çalışdırırdı. Komanda Premyer Liqada 7-ci sıradadır.

# Səudiyyə Ərəbistanına qar yağıb

Səudiyyə Ərəbistanının Şimal Sərhəd Bölgəsində yerləşən Tureyf şəhərinə qar yağıb. SİA-nın Sputnik-ə istinadən əldə etdiyi məlumata görə, qarın yağışı şəhərin yüksək və dağlıq ərazilərində təsirli olub. Belə ki, bölgədəki bir çox ərazi ağ "örpəyə bürünüb". Səudiyyə Ərəbistanı Milli Meteorologiya Mərkəzi bölgədə ən çox 7 dərəcəyə qədər enə bilən temperaturun sıfırın altına düşə biləcəyini açıqlayıb.



# Yasamalda evdən qızıl oğurlayanlar tutulub



Yasamalda bir evdən 15 min manatlıq qızıl, eləcə də yeni tikilməkdə olan binalarda ustaların təmir-tikinti alətlərini oğurlayan şəxslər saxlanılıblar. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Yasamal Rayon Polis İdarəsinin 28-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində rayon ərazisində yerləşən evlərdən birindən dəyəri 15 min manat olan qızıl-zinət əşyaları oğurlayan şəxs saxlanılıb. Əməliyyat zamanı əvvəllər məhkum olunmuş Vüsal Rzayev tutlaraq istintaqa təqdim edilib. Araşdırma zamanı onun qızıl-zinət əşyalarını dəyər-dəymezinə, yeni 6000 manata sataraq şəxsi ehtiyacları üçün xərclədiyi məlum olub.

Yasamal Rayon Polis İdarəsinin 29-cu Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində isə rayon ərazisində silsilə oğurluqlar edən əvvəllər məhkum olunmuş Orxan Hüseynov saxlanılıb. Onun Yeni Yasamal ərazisində yeni tikilməkdə olan binalarda usta işləyən şəxslərin təmir-tikinti alətlərini, həmçinin qeyd edilən ərazidə yerləşən mağazalardan birindən pul və tütün məmulatları oğurladığı məlum olub. Qeyd edilən faktlarla bağlı Vüsal Rzayev və Orxan Hüseynov barəsində Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində araşdırmalar davam etdirilir. Vüsal Rzayev və Orxan Hüseynovun qanunsuz əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa bu barədə ərazi polis orqanlarına, "102" Xidməti-Zəng Mərkəzinə, eləcə də Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə müraciət edə bilərlər.

# Stress niyə ürəyi zədələyir?- Alman professor səbəbini açıqladı

**Stress əcdadlarımızın ən yaxşı dostu idi, onların həyatını qurtarırdı. Lakin müasir insanlar haqqında bunu demək olmaz. Stress müasir insanların düşmənidir, ürək-damar sistemini sıradan çıxardan, insan həyatını qısaldan əsas amildir. Saglamolun.az xarici KİV-lərə istinadla bildirir ki, almaniyalı professor Kristof Herrmann-Linqen bunun səbəblərini izah etdi.**

Təhlükə zamanı orqanizmdə çoxlu miqdarda stress hormonları (adrenalin, noradrenalin və kortizol) ifraz olunur. Onların təsirindən qan dövranı və tənəffüs tezləşir, əzələlər qanla daha yaxşı təchiz olunur, beyin aktivləşir. Bədən 2 mümkün olan ssenariya hazırlaşır - döyüşmək və ya qaçmaq. Hər 2 halda fiziki aktivlik, əzələ aktivliyi tələb olunur. Fiziki aktivlik stresin bədəndən çıxmağına səbəb olur ki, nəticədə orqanizm sakitləşir və rahatlaşır.

Lakin bu gün insan stresi aktiv şəkildə deyil, passiv şəkildə yaşayır. Nəticədə orqanizmdə əmələ gələn əlavə enerji sərf olunmur, stress daha uzunmüddətli olur, güclü gərginlik yaranır.



Stress zamanı ürək və qan dövranının aktivləşməsi nəticəsində təzyiq qalxır. Əzələ aktivliyi olmadıqda təzyiq uzun müddət ərzində yüksək səviyyədə qalır və bu da ürək və damarlara ciddi ziyan vurur, onların həddindən artıq yüklənməsinə səbəb olur, hipertoniyanın inkişafına gətirib çıxardır. Professor qeyd edir ki, vaxt keçdikcə yüksək təzyiqin təsirindən ürək əzələsi və damarlar zədələnir, aritmiya, infarkt və ya ürək çatışmazlığı inkişaf edir.

Bütün bunları nəzərə alaraq professor stresli həyat sürən insanlara fiziki aktiv olmağı, müntəzəm olaraq idman və bədən tərbiyəsi ilə məşğul olmağı, daha çox piyada gəzməyi tövsiyə edir. Bütün bunlar orqanizmdə stresin səviyyəsini azaldaraq ürəyi və damarları qorumağa kömək edir.

## ELAN

11.28.1979-cu il təvəllüdlü Axundov Zamin Qiyas oğluna məxsus şəxsiyyət vəsiqəsi, Beynəlxalq Banka məxsus iki kart və Azeriqaza məxsus bir ədəd qaz kart itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**